# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 may
2025-ci il,
çərşənbə
№ 086 (6913)
Qiymәti
60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Eyni çağırışlarla üz-üzəyik...

## İlham Əliyev: Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir

## Viktor Orban: Etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür

Bax səh. 2

## Azərbaycan - Macarıstan: Tarixə və müasir reallıqlara əsaslanan strateji tərəfdaşlıq

Bax səh. 3



Bax səh. 4

## YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



Bax səh. 4

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Şimali Kipr Türk Cümhuriyyətində səfərdədirlər

## Korrupsiyaya qarşı qlobal mübarizənin Bakı gündəliyi

Son illərdə nüfuzlu beynəxalq təşkilatların mühüm tədbirlərinin Azərbaycanın ev sahibliyi ilə keçirilməsi bir ənənə halını alıb. Dünən Bakıda daha bir mötəbər tədbirin açılışı baş tutub. Söhbət BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - "GlobE Network" çərçivəsində keçirilən altıncı plenar iclasından gedir.

Beynəlxalq tədbir mayın 23-dək davam edəcək. Prezident İlham Əliyev...

Bax səh. 3

## Bank olmasa da...

Mərkəzi Bank (MB) bank olmayan kredit təşkilatlarının (BOKT) alternativ maliyyələşdirmə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi imkanlarını dəyərləndirir. Azərbaycan Mikromaliyyə Assosiasiyasına (üzv təşkilatların və bank olmayan kredit təşkilatlarının rəhbər şəxslərinin MB-da keçirilən görüşündə BOKT-ların maliyyə bazarlarında daha aktiv fəaliyyətinin təmin edilməsi üçün təkliflər müzakirə olunub. Bank olmayan kredit təşkilatlarının cari ilin ilk rübündə fəaliyyətinin nəticələri və bank sistemindəki rolunun perspektivləri nəzərə alınaraq yeni qəbul edilmiş "Mikromaliyyə Modeli üzrə Strateji Çərçivə" sənədində bu qurumlara əlavə imkanların yaradılması qərara alınıb...

Bax səh. 4

## Kəngərliyə 2-ci köç!

İşğaldan azad edilmiş ərazilərimiz bu gün yenidən çiçəklənir, doğma sakinlərini qarşılamağa davam edir. Dövlət siyasətimiz həmin ərazilərin müasir tələblərə uyğun qurulmasına, əzəli Qarabağ torpaqlarında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Artıq keçmiş məcburi köçkünlərimizin doğma yurdlarından səsləri eşidilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın qayıtması nəzərdə tutulur.

**Yeni dövrə qədəm qoyan Ağdam!**

Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı...

Bax səh. 5

## Daşınmaz əmlak bazarında canlanma

2025-ci ilin birinci rübündə Bakıda mənzillərin qiymətlərində yenidən bahalaşma qeydə alınıb. Qiymət artımı həm köhnə, həm də yeni inşa olunan binalarda müşahidə edilir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin birinci rübündə əmlak qiymətləri indeksində 2024-cü ilin dördüncü rübü ilə müqayisədə 4,4 faiz, o cümlədən ilkin mənzil bazarı üzrə 2 faiz, təkrar mənzil bazarı üzrə isə 4,5 faiz artım olub. Birinci rübdə mənzil bazarının qiymət indeksində 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,4 faiz, o cümlədən ilkin mənzil bazarı üzrə 12,9 faiz, təkrar mənzil bazarı üzrə isə 14,4 faiz artım baş verib...

Bax səh. 5



## III raunda hazırlıq: İstanbulda görüşənə qədər...

Bax səh. 6



## Aİ müdafiə fondu yaradır

Bax səh. 7

# Eyni çağırışlarla üz-üzəyik...

## İlham Əliyev: Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir
## Viktor Orban: Etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də bu ölkəyə işgüzar səfərə gəlib.**

***

**Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olub.**

**AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.**

## Macarıstan təşkilat çərçivəsində əməkdaşlığa sadiqdir

Sonra Budapeştdə Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.

Viktor Orban həm Macarıstana işgüzar səfər etməsinə və səfər çərçivəsində keçirilən ikitərəfli görüşlərə, həm də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştiraka dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Baş nazir vurğulayıb ki, ölkəsinin Türk Dövlətləri Təşkilatında müşahidəçi dövlət olaraq bu tədbirə ev sahibliyi etməsi Macarıstanın təşkilat çərçivəsində əməkdaşlığa sadiq olduğuna böyük əhəmiyyət verməsinin növbəti göstəricisidir.

İkitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirən Viktor Orban Macarıstan iqtisadiyyatının çətin vaxtlarında Azərbaycanın dost ölkə olaraq göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini deyib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, mütəmadi qarşılıqlı səfərlərin həyata keçirildiyini qeyd edib.



Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının keçirilməsini vacib bir addım kimi qiymətləndirib. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün Şuşa şəhərində keçirildiyini xatırladan və bunun artıq ənənəyə çevrildiyini deyən dövlətimizin başçısı ikinci bu cür tədbirin müşahidəçi dövlət olaraq Macarıstanda keçirilməsini məmnunluqla vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Macarıstan arasında sıx siyasi dialoqun mövcud olduğu, mütəmadi şəkildə məsləhətləşmələrin aparıldığı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəklədiyi qeyd edilib. Azərbaycanın və Macarıstanın beynəlxalq səviyyədə öz ölkələrinin milli maraqları əsasında müstəqil siyasət aparan dövlətlər olduqları vurğulanıb. Cəbrayılın Soltanlı kəndinin, həmçinin məktəb tikintisi layihəsinə görə Macarıstana təşəkkür bildirilib.

Humanitar sahədə uğurlu əməkdaşlığa toxunulub, azərbaycanlı tələbələrin Macarıstanda təhsil almaları və onlara təhsil təqaüdlərinin ayrıldığı qeyd edilib.

Söhbət zamanı enerji, investisiyalar, əczaçılıq, qida sənayesi və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

## Müharibənin döyüş meydanında həlli yoxdur

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Macarıstanın Baş naziri bəyanatla çıxış edərək Prezident İlham Əliyevi Budapeştdə xüsusi səmimiyyətlə salamlayıb: “Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub”.

Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısının Macarıstanda keçirildiyini söyləyən Baş nazir bu gün beynəlxalq diplomatiyada qasırğanın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə etdiklərindən məmnunluğunu ifadə edib.

“Macarıstanın qonşusu olan ölkədə artıq üç ildir ki, müharibə gedir. Bugünədək Macarıstanın iqtisadiyyatının itkisi 20 milyard avrodan artıqdır. Hər kəsə məlumdur ki, müharibə başlayan gündən bəri Avropa İttifaqı müharibəni genişləndirmək seçimini etmişdir, nəinki sülhü bərqərar etmək. Bundan əlavə, Avropa iqtisadiyyatı olduqca mürəkkəb vəziyyətdədir. Çünki sanksiyalar bazar iqtisadiyyatını və Avropanın inkişafının təməlini sarsıtmışdır. Bazar iqtisadiyyatı, əlbəttə ki, Avropa iqtisadiyyatının təməl prinsipləri idi və bunlar artıq sarsılmış vəziyyətdədir. Deyə bilərəm ki, bu gün Avropa iqtisadiyyatının gəmisi kompas olmadan səyahət edir. Onu da qeyd etmək istəyirəm ki, biz mütəmadi olaraq enerji böhranı şəraitində yaşayırıq. Biz Amerikadan fərqli olaraq, Avropada qaza 3-4 dəfə daha çox pul ödəyirik və bu şəraitdə rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq çətindir” - deyən Baş nazir Viktor Orban ölkəsinin dənizə çıxışı olmadığını, Rusiya ilə enerji münasibətlərini qoruyub saxladıqlarını bildirib. Ölkəsi üçün istisna tətbiq edildiyini, lakin Ukraynanın Macarıstana məhdudiyyətlər tətbiq etdiyini söyləyən Baş nazir Türkdilli dövlətlərin dəstəyindən söz açıb: “Etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür. Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir. Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır. Ola bilər bu, Azərbaycan üçün çox böyük həcm deyil. Ancaq bizim üçün bu, çox vacib bir məsələdir ki, Azərbaycanın neft yataqlarında payçıyıq. Bu, təkcə iqtisadi baxımdan deyil, sırf mənəvi baxımdan da vacibdir. Bu dostluq sayəsində biz özümüzü daha az mürəkkəb vəziyyətdə, həssas vəziyyətdə hiss edirik”.

İqtisadiyyat məsələlərindən başqa, Azərbaycana yatırılan Macarıstan sərmayələri haqqında danışdıqlarını bildirən Baş nazir Viktor Orban müzakirələr zamanı sülh məsələlərinə yer ayırdıqlarını deyib: “Çünki sülh təkcə müharibə şəraiti üçün vacib deyil, iqtisadi baxımdan da vacibdir. Biz razılığa gəldik ki, bu müharibənin döyüş meydanında həlli yoxdur. Bu, yalnız danışıqlar masasında olmalıdır. Bu, təkcə Rusiya-Ukrayna müharibəsinə deyil, digər münaqişələrə də şamil edilə bilər.

Mən Prezident Əliyevi təbrik etmək istəyirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzərində razılıq əldə olunub. Ümid edirəm ki, sülh müqaviləsinin imzalanması tezliklə baş tutacaq. Bu, olduqca vacib bir məsələdir.

Cənab Prezident, Sizi burada bir daha salamlayırıq.

## Bir çox məsələlərdə mövqelərimiz üst-üstə düşür...



Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edərək dəvətə və qonaqpərvərliyə görə  Macarıstanın Baş nazirinə təşəkkürünü bildirib və qeyd edib ki, ölkə başçılarının qarşılıqlı səfərləri müntəzəm xarakter daşıyır və Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir.

Ölkələrimizin dost və strateji tərəfdaş olduğunu bildirən Prezident İlham Əliyev müzakirələr zamanı bir çox məsələlərdə mövqelərimizin üst-üstə düşdüyünü, Azərbaycan ilə Macarıstanın oxşar cəhətlərinin olduğunu, eyni çağırışlarla üz-üzə durduğumuzu vurğulayıb: “Azərbaycan, eyni zamanda, dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya-Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur.

İkinci Qarabağ müharibəsi beynəlxalq hüquq çərçivəsində - BMT-nin Nizamnaməsi əsasında aparıldı. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik”.

Ermənistan-Azərbaycan arasında sülh prosesindən söz açan dövlətimizin başçısı İkinci Qarabağ müharibəsindən sonra sülh danışıqlarının təşəbbüskarının məhz Azərbaycan olduğunu vurğulayıb: “Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib. Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq defakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur”.

Prezident İlham Əliyev ikitərəfli gündəliyimizin də kifayət qədər geniş olduğunu söyləyib. Energetika sahəsində uğurlu əməkdaşlığımızdan bəhs edən dövlətimizin başçısı bildirib ki, Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidir - “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqlarında. Gələn ilin əvvəlində növbəti kontrakt imzalanacaqdır: “Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkəti fəaliyyətə başlayacaq. Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur. Biz, eyni zamanda, Macarıstanla yaşıl enerji üzrə fəal işləyirik. Azərbaycanın çox böyükmiqyaslı yaşıl enerji gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə yaşıl enerji istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək. Mən bütün bu rəqəmləri kontraktlar əsasında deyirəm, yəni bu, reallaşacaq layihələrdir. Beləliklə, təkcə bu layihələr bizə təqribən 3-4 milyard kubmetr qaza qənaət etmək üçün imkan yaradacaq ki, bunun da əsas istiqaməti təbii ki, Türkiyə və Avropa ölkələri olacaqdır”.

Çıxışının sonunda Macarıstanı bütün əldə edilmiş uğurlar münasibətilə təbrik edən dövlətimizin başçısı Macarıstanı müstəqil siyasət aparan nadir ölkələrdən biri kimi qiymətləndirib: “Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir. Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub. Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə. Sizə və bütün dost macar xalqına bu istiqamətdə yeni uğurlar arzulayırıq”.

# Korrupsiyaya qarşı qlobal mübarizənin Bakı gündəliyi

Son illərdə nüfuzlu beynəxalq təşkilatların mühüm tədbirlərinin Azərbaycanın ev sahibliyi ilə keçirilməsi bir ənənə halını alıb. Dünən Bakıda daha bir mötəbər tədbirin açılışı baş tutub. Söhbət BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - "GlobE Network" çərçivəsində keçirilən altıncı plenar iclasından gedir.

Beynəlxalq tədbir mayın 23-dək davam edəcək. Prezident İlham Əliyev plenar iclasın iştirakçılarına müraciət ünvanlayıb. Dövlətimizin başçısı müraciətində Azərbaycanın korrupsiyaya qarşı mübarizədə prinsipial yanaşma sərgilədiyini və bu məqsədlə səmərəli hüquqi və institusional çərçivə yaratdığını diqqətə çatdırıb. "Bu tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisidir. Dünyanın müxtəlif hüquq sistemlərini təmsil edən peşəkarları bir araya gətirən bu toplantı korrupsiyaya qarşı mübarizədə ortaq iradənin təcəssümüdür", - deyə müraciətdə vurğulanır.



**Korrupsiyaya qarşı mübarizədə yeni çağırışlar**

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı korrupsiyanın da, necə deyərlər, zamana uyğun yeni transmilli növlərinin yaranmasını şərtləndirib. Bu kimi reallıqlar fonunda da milli dövlətlərin məsuliyyəti və qlobal təhdidlərə qarşı birgə səylərin gücləndirilməsi zərurəti ortaya çıxıb. "Hazırda süni intellekt, rəqəmsal maliyyə sistemləri və kibermühitlə bağlı texnoloji inkişaf korrupsiya və digər cinayətlərin yeni formalarının yaranmasına səbəb olmuşdur. Bu mürəkkəb və sürətlə dəyişən çağırışlar hüquq-mühafizə orqanları üçün qlobal miqyasda yeni və çoxşaxəli vəzifələr müəyyən edir. Azərbaycan bu təhlükələrin qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində öz imkanlarını gücləndirməyə sadiqdir", - deyə Prezident İlham Əliyev bildirib.

Korrupsiyaya Qarşı Mübarizədə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) yaradılması təşəbbüsü 2020-ci ildə İyirmilər Qrupunun (G20) Korrupsiyaya Qarşı Mübarizə Nazirlərinin ilk görüşü zamanı irəli sürülüb. 2021-ci ilin 2-4 iyun tarixlərində keçirilmiş BMT-nin Baş Assambleyasının Korrupsiyaya qarşı Mübarizə üzrə Xüsusi sessiyasında (UNGASS 2021) GlobE Network-un aralıq iclası keçirilib və müzakirələrin sonunda şəbəkənin fəaliyyətə başlaması ilə əlaqədar qərar qəbul edilib. Şəbəkə korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları arasında birbaşa əlaqəni gücləndirmək, digər ölkələrin beynəlxalq əməkdaşlığa cəlb olunmasını təşviq etmək və bu cür əməkdaşlığa imkan verən digər mövcud platformaları əlaqələndirmək məqsədi daşıyır.

Bakının ev sahibliyi etdiyi altıncı plenar iclasda 92 ölkədən 120-dən çox dövlət qurumu, o cümlədən 21 prokurorluq, 53 müstəqil antikorrupsiya qurumu və 16 beynəlxalq təşkilatdan ümumilikdə 300-dən artıq nümayəndə fiziki, 60-dan artıq iştirakçı isə onlayn formatda iştirak edir. Tədbirə həmçinin müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən 50-yə yaxın rəhbər vəzifəli şəxslər də qatılıblar.

Korrupsiyaya qarşı qlobal mübarizənin Bakı gündəliyi olduqca aktualdır. Əsas mövzusu "Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" olan plenar iclasda korrupsiya nəticəsində əldə edilmiş vəsaitlərin müsadirəsi, əldə edilmiş aktivlərin birbaşa bərpası, maliyyə əməliyyatlarında şübhəli əməliyyatların dayandırılması, cinayət prosesində bank hesablarının sürətli dondurulması üzrə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə ictimai maarifləndirmə və digər alt mövzular üzrə panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış nəzərdə tutulur.

**Azərbaycanda yaradılan səmərəli hüquqi və institusional antikorrupsiya çərçivəsi**

Beynəxalq miqyasda korrupsiyaya qarşı mübarizədə hədəflənən nəticələri əldə etməkdən ötrü ilk növbədə milli səviyyələrdə səmərəli antikorrupsiya mexanizmləri işə salınmalıdır. Müraciətdə ölkəmizin bu sahədə qətiyyətli siyasi iradə ortaya qoyduğuna diqqət çəkən Prezident İlham Əliyev "Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir. Bu istiqamətdə hüquqi və institusional çərçivə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əsasında formalaşmışdır. Bu qurumlar rəqəmsal transformasiya, açıq hökumət prinsipləri və beynəlxalq əməkdaşlıq vasitəsilə şəffaflıq və hesabatlılığın möhkəmləndirilməsində vacib rol oynayır", - deyə vurğulayıb.

Respublikamızda korrupsiyaya qarşı mübarizə ardıcıl və sistemli xarakter daşıyır. Son illərdə aparılan islahatlar çərçivəsində Azərbaycanda korrupsiyaya qarşı mübarizə mexanizmləri ardıcıl olaraq təkmilləşdirilib, qanunvericilik bazası daha da genişəndirlib. Respublikamızda neqativ hallara qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif dövlət proqramları, milli strategiyalar qəbul olunub və uğurla reallaşdırılıb. Dövlətin, şəxsən Prezident İlham Əliyevin göstərdiyi qətiyyətli siyasi iradəyə uyğun olaraq Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili, "ASAN xidmət", "DOST" modellərinin tətbiqi vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ölkənin mövcud inkişaf səviyyəsi bütün sahələrdə olduğu kimi, korrupsiyaya qarşı mübarizədə də yeni baxış tələb edir. Prezident İlham Əliyevin 4 aprel 2022-ci il tarixində imzaladığı müvafiq sərəncamla "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənib. Cari ildə isə dövlətimizin başçısı "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi haqqında fərman imzalayıb. Bu sənədlərin təsdiqlənməsi Azərbaycanın özünün inkişafının indiki mərhələsində korrupsiyaya qarşı mübarizəyə yeni baxışını və niyyətini ifadə edir.

*Mübariz FEYİZLİ*

# Azərbaycan-Macarıstan: Tarixə və müasir reallıqlara əsaslanan strateji tərəfdaşlıq



Qlobal Cənubu və İslam dünyasını təmsil edən Azərbaycan özünün multiregional xarici siyasət kursuna sadiq qalmaqla Qlobal Qərbin ayrılmaz hissəsi olan Avropa İttifaqında (Aİ) yer alan ölkələrlə əlaqələrin genişənməsinə xüsusi önəm verir. Bu kontekstdə respublikamızla Macarıstan arasında qarşılıqlı maraqlara əsaslanan münasibətlərin dərinləşməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi diqqət çəkir.

Hər zaman müstəqillik və suverenlik prinsiplərindən çıxış edən ölkələrimiz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirlər. Yeni geosiyasi və geoiqtisadi reallıqlar şəraitində Azərbaycan Macarıstanın enerji təhlükəsizliyinin təmin olunmasında yer alan dövlətə çevrilib. Öz növbəsində dost ölkə respublikamızın Avropa İttifaqı ilə inteqrasiyasının genişlənməsinə güclü siyasi dəstək göstərir.

Elə ölkələr var ki, onların münasibətləri keçici maraqlar üzərində qurulur və adətən zamana bağlı olur. Çağırışlar və reallıqlar dəyişdikdə münasibətlər də dəyişir. Azərbaycanla Macarıstanın münasibətləri isə həm dövlət maraqlarına, həm cəmiyyətlərin qarşılıqlı rəğbətinə, həm də tarixə bağlıdır. Türk kökənliyi iki ölkəni və xalqı bir araya gətirən ən etibarlı bağdır. Azərbaycan getdikcə qlobal güc mərkəzlərindən birinə çevrilməkdə olan Türk Dövlətləri Təşkilatının (TDT) əsasının qoyulmasında mühüm rol oynayan dövlətlərdən biridir və hazırda da qurumun funksionallığının artmasına sanballı töhfələr verir. Macarıstan isə 2018-ci ildən etibarən TDT-da müşahidəçi statusuna malikdir və son illərdə təşkilatla əlaqələrini daha da gücləndirərək qumun tamhüquqlu üzvü olmağı hədəfləyib. Rəsmi Budapeştin Türk dünyası ilə sıx inteqrasiyaya çalışması təsadüfi deyil. Bu, bilavasitə tarixlə bağlıdır. Macarıstanın Baş naziri V. Orbanın qeyd etdiyi kimi, "macarlar qıpçaq türkləridir, Macarıstan isə xristian türklərin torpağıdır".

## Dinamik səciyyə daşıyan siyasi dialoq

Qeyd olunan reallıqlar fonunda iki ölkə arasında dinamik səciyyə daşıyan siyasi dialoq formalaşıb. Belə ki, 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyan Macarıstanla diplomatik münasibətlər 1992-ci il aprelin 27-də qurulub. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi təsis olunub. İki ölkə arasında parlamentlərarası münasibətlər də yüksək səviyyədə inkişaf edir. Hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir. Çoxtərəfli formatlarda, xüsusilə BMT, ATƏT, NATO, Aİ və digər beynəlxalq platformalar çərçivəsində iki ölkə arasında davamlı əməkdaşlıq əlaqələri inkişaf etdirilir.

Əlaqələrin inkişafında 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə mühüm rol oynayıb. Bu proses 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da güclənib və ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoymasını şərtləndirib.

Yeni Azərbaycan Partiyası (YAP) ilə hakim Fides - Macarıstan Vətəndaş Birliyi Partiyası (sədri Baş nazir Viktor Orbandır) arasında səmərəli əməkdaşlıq mövcuddur. Ötən il YAP-ın təşkilatçılığı ilə Şuşada keçirilən "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransda Fides - Macarıstan Vətəndaş Birliyi Partiyasının üzvü, Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki çıxış edib.

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyəyə çatmasından bəhs edərkən liderlərin bir-birinə səmimi münasibətinin, qarşılıqlı səfərlərin önəmini xüsusi vurğulamaq lazımdır. Bunlar əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti Macarıstanda 2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar. Viktor Orbanın Türk Dövlətləri Təşkilatı dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün ötən il Şuşaya səfəri həmin dövrdə Macarıstanın Avropa İttifaqı Şurasına sədrlik etməsi, eləcə də Aİ-yə üzv ölkələrin dövlət və hökumət başçıları səviyyəsində Şuşaya ilk səfər olması baxımından mühüm əhəmiyyət kəsb edib. Eyni zamanda, Azərbaycan ilə xüsusi münasibətlər nəzərə alınaraq, Macarıstan COP29-da belə tədbirlərə ənənəvi yanaşmaya uyğun olaraq ölkə prezidenti səviyyəsində deyil, istisna hal kimi Baş nazir səviyyəsində təmsil olunub. Azərbaycanla Macarıstan arasında siyasi dialoqun yüksək səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: "Macarıstan bizim Avropa İttifaqındakı bir nömrəli tərəfdaşımızdır və bəzi hallarda Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüləndə birinci bizim müdafiəmizə Macarıstan qalxır. Bilirəm ki, buna görə Macarıstan da bəzi Avropa ölkələri tərəfindən təzyiqlərlə üzləşir. Ancaq Macarıstanın prinsipial mövqeyi, haqqın, ədalətin yanında olması, beynəlxalq hüquqa hörmətlə yanaşması onun beynəlxalq nüfuzunu böyük dərəcədə artırır".

İkitərəfli əməkdaşlığın möhkəmlənməsi istiqamətində mühüm addımlardan biri də Azərbaycan-Macarıstan Strateji Dialoqunun təsis edilməsidir. Bu çərçivədə ilk iclas 2023-cü ilin sentyabrında Budapeştdə, ikinci iclas isə 2024-cü ilin iyununda Bakıda baş tutub.

## Müxtəlif istiqamətləri əhatə edən iqtisadi əlaqələr

Siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iki ölkə arasında iqtisadi əlaqələr də müxtəlif istiqamətlərdə uğurla inkişaf edir. 2024-cü ilin sonuna olan göstəricilərə əsasən ölkələrimiz arasındakı ticarət dövriyyəsində 29 faiz artım müşahidə edilib ki, bu da əlaqələrin möhkəmlənməsinin və inkişafının əhəmiyyətli göstəricisidir.

Bundan başqa, ötən il Macarıstandan Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 1,018 milyard ABŞ dolları təşkil edib. Azərbaycanlı investorlar isə Macarıstanda kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə böyük sərmayələr qoyurlar və bu da iqtisadi tərəfdaşlığı daha da gücləndirir.

Eyni zamanda, Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərində iştirak etməkdə maraqlıdırlar. "KESZ" şirkətlər qrupu Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulmasını həyata keçirir. Macarıstan hökumətinin vəsaiti hesabına Soltanlı kəndində məktəbəqədər və ümumi təhsil müəssisələri üçün binalar tikiləcək. Bakıda keçirilən Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" sərgilərində ənənəvi olaraq Macarıstan şirkətləri iştirak edirlər.

Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın iclasları illik əsasda keçirilir. Hər iki paytaxtda müntəzəm şəkildə birgə biznes-forumlar təşkil olunur. Birgə Komissiyanın növbəti 11-ci iclasının 2025-ci ilin iyun ayında Budapeştdə keçirilməsi nəzərdə tutulub.

Sənaye sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılıb. 2023-cü il iyulun 10-da "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə Macarıstanın "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsi, iyulun 31-də isə "Scandens Pharmaceutical Industries Ltd" MMC ilə "Gedeon Richter" şirkəti arasında Azərbaycanda dərman vasitələrinin birgə istehsalı haqqında müqavilə imzalanıb. 2025-ci il aprelin 24-də "Azərkosmos" ilə "4iG Space and Defence Ltd." şirkəti arasında anlaşma memorandumu imzalanıb. Həmçinin 2022-ci ilin yanvar ayında Ələt Azad İqtisadi Zonası ilə Macarıstan İxracın Təşviqi Agentliyi arasında anlaşma memorandumu imzalanıb.

Hərbi və müdafiə sənayesi sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi qarşılıqlı maraq kəsb edir. 2023-cü və 2024-cü illərdə Azərbaycanın və Macarıstanın müdafiə nazirlərinin qarşılıqlı səfərləri baş tutub. 2024-cü il sentyabrın 24-26-da Bakıda keçirilən "ADEX-2024" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisində Macarıstan milli pavilyonla təmsil olunub.

## Ənənəvi enerji əməkdaşlığından yaşıl enerji əməkdaşlığına keçid

İki ölkə arasında enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. "MOL" şirkətlər qrupu "Azəri-Çıraq-Günəşli" yatağında 9.57 faiz, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsində isə 8.9 faiz paya sahibdir. 2023-cü il yanvarın 30-da Budapeştdə imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında təbii qaz əməkdaşlığı haqqında Anlaşma Memorandumu" bu istiqamətdə növbəti uğurlar üçün zəmin yaradıb. 2023-cü il iyunun 2-də SOCAR ilə "MVM" şirkətlər qrupu arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə imzalanıb. 2024-cü il iyunun 5-də "MVM" şirkətlər qrupu ilə "Şahdəniz" layihəsində pay alışı, sentyabrın 20-də isə "MOL" şirkətlər qrupu ilə Şamaxı-Qobustan sahəsində kəşfiyyat, işlənmə və hasilatla bağlı sənədlər imzalanıb. "Həmrəylik Halqası" təşəbbüsü çərçivəsində 2023-cü il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan), "Eustream" (Slovakiya) və SOCAR arasında anlaşma memorandumu imzalanıb.

Ötən il ilk dəfə olaraq Macarıstan Azəbaycandan qaz alıb. İmzalanan sazişə əsasən ölkəmizdən Macarıstana illik qaz ixracının həcminin 1 milyard kubmetrə çatdırılması hədəflənib.

İki ölkə arasında enerji əməkdaşlığı artıq yaşıl enerji mərhələsinə daxil olub. Macarıstan hökuməti "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" əsasında yaşıl enerji dəhlizinin yaradılmasına dəstək verir. Xatırladaq ki, 2022-ci ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya liderlərinin iştirakı ilə Qara dənizin dibi ilə elektrik enerjisinin tədarükü haqqında dördtərəfli saziş imzalanıb. Azərbaycanda bərpa olunan mənbələrdən alınacaq elektrik enerjisi bu marşrutla Avropaya çatdırılacaq.

*Mübariz ABDULLAYEV*

# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib







Mayın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.

Tahir Budaqov Lu Meyi Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edib, onun ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edərək uğurlar arzulayıb.

Təbrikə görə minnətdarlığını bildirən səfir Lu Mey Çinin etibarlı strateji tərəfdaşı olan Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verdikləri, dövlət başçılarının iradələri sayəsində hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyətin həyata keçirildiyi qeyd olunub. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin cari ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın imzalanması çoxşaxəli işbirliyinin inkişafına əlavə təkan verərək dövlətlərarası münasibətlərin yeni mərhələyə yüksəlməsini şərtləndirib.

Bir-birinin ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verən Azərbaycan ilə Çinin dost və tərəfdaş dövlətlər kimi beynəlxalq müstəvidə əməkdaşlığı xüsusi diqqət mərkəzində saxladıqları qeyd olunub. Avrasiyada təhlükəsizliyin və qarşılıqlı faydalı işbirliyinin gücləndirilməsinin tərəfdarı kimi çıxış edən hər iki ölkənin müxtəlif istiqamətlərdə, o cümlədən ticari-iqtisadi, nəqliyyat-logistika, mədəni, humanitar, “yaşıl enerji” və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqları vurğulanıb.

Görüş əsnasında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası (ÇKP) arasında fəal siyasi dialoq şəraitində sıx təmasların, o cümlədən qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilib, bu xüsusda 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri zamanı ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası münasibətlərin daha da möhkəmlənməsinə önəmli töhfə olduğu bildirilib. Memorandumdan irəli gələn vəzifələrin bugünədək uğurla yerinə yetirildiyi, partiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi qeyd olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şimali Kipr Türk Cümhuriyyətində səfərdədirlər








Yeni Azərbaycan Partiyası, Türkiyənin Ədalət və İnkişaf Partiyası və Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyası arasında 2023-cü il noyabrın 14-də imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələrək gənclər arasında təmasların artırılması, birgə fəaliyyət və təcrübə mübadiləsinin təşviqi məqsədilə “Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi” layihəsinə start verilib.

İlk olaraq Şimali Kipr Türk Cümhuriyyətində təşkil olunan düşərgəyə Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun başçılıq etdiyi nümayəndə heyəti də qatılıb.

Mayın 18-də hər üç partiyanı təmsil edən gənclər Bellapais monastrı, Girne antik limanı, Girne qalası və Osmanlı Baldöken məzarlığını ziyarət ediblər.

Mayın 19-da Karaoğlanoğlu və Muratağa-Sandallar şəhidlikləri ziyarət olunub, 1974-cü ildə həyata keçirilən “Barış” hərəkatında canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Həmin gün gənc partiya nümayəndələri Kipr Sülh Əməliyyatından sonra Şimali Kipr Türk Cümhuriyyəti tərəfindən hərbi zona elan edilən Maraş bölgəsini də ziyarət edib, “19 May-Atatürkü Anma, Gənclik və İdman Bayramı” münasibətilə keçirilən təntənəli yürüşə qatılıblar.

# Bank olmasa da...

## Minlərlə insanın kredit ünvanıdır

## BOKT-ların alternativ maliyyələşdirmə mənbələrinə çıxış imkanları genişləndirilə bilər

Mərkəzi Bank (MB) bank olmayan kredit təşkilatlarının (BOKT) alternativ maliyyələşdirmə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi imkanlarını dəyərləndirir. Azərbaycan Mikromaliyyə Assosiasiyasına (üzv təşkilatların və bank olmayan kredit təşkilatlarının rəhbər şəxslərinin MB-da keçirilən görüşündə BOKT-ların maliyyə bazarlarında daha aktiv fəaliyyətinin təmin edilməsi üçün təkliflər müzakirə olunub. Bank olmayan kredit təşkilatlarının cari ilin ilk rübündə fəaliyyətinin nəticələri və bank sistemindəki rolunun perspektivləri nəzərə alınaraq yeni qəbul edilmiş “Mikromaliyyə Modeli üzrə Strateji Çərçivə” sənədində bu qurumlara əlavə imkanların yaradılması qərara alınıb.

Qeyd edək ki, ötən ilin sonunda Mərkəzi Bankın təsdiqlədiyi “Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin prudensial tənzimlənməsi Qaydası”na əsasən, qeyri-bank qurumlarının nizamnamə kapitalı tələbinin üç dəfədən çox artırılması tələbi qoyulub. Məqsəd mikromaliyyə sektorunun tənzimlənməsində və maliyyə xidmətlərinin göstərilməsində BOKT-ların fəaliyyətinin daha da təkmilləşdirilməsini təmin etmək, həmçinin onların göstərdiyi xidmətlərin keyfiyyətini artırmaq və korporativ idarəetməni inkişaf etdirməkdir. Həmçinin, BOKT sektorunda risklərin sığortalanması sistemini təmin etməklə onların etibarlılığını artırmaq, biznesə kredit ötürücülüyündə fəallığını təşviq etmək başlıca məqsədlərdəndir.

Ümumilikdə, MB qeyri-bank təşkilatlarının dayanıqlığının artırılması, korporativ idarəetmənin təkmilləşdirilməsini və kreditləşmənin keyfiyyətinin yaxşılaşdırılması üçün əlavə stimullaşdırıcı addımlar atmaq niyyətindədir.

### BOKT-ların aktivləri 1 milyard manata çatıb

Hazırda BOKT-ların aktivləri (2025-ci il yanvarın 1-ə) 1 milyard manat təşkil edir ki, bu da 5 il əvvəlki göstəricisi ilə müqayisədə üç dəfədən çox, ötən illə müqayisədə isə 24 faiz çoxdur. BOKT-ların nizamnamə kapitalı 2020-ci ildəki 141 milyon manatdan 2024-cü ilin sonuna 456 milyon manata qədər yüksəlib. Sektorun xalis mənfəəti ötən il 231 milyon manat təşkil edib, verilən kreditlərin ümumi həcmi isə 800 milyon manatı ötüb. Bu rəqəmlər qeyri-bank qurumlarının bazardakı fəaliyyətinin kifayət qədər möhkəmlənməsini təsdiqləyir.

Bank olmayan kredit qurumlarının sayı 50-dən çox olmaqla bankların sayını iki dəfə üstələyir, hətta elə BOKT var ki, banklarla güclü rəqabət aparmaq gücünə malikdir, bölgələrdə çoxsaylı filalları fəaliyyət göstərir və filial sayı bəzi banklardan çoxdur. Təxminən 5 BOKT-un 20-35 arasında regional filalları var ki, bu da bir neçə bankın filial sayını üstələyir.




BOKT-ların öz portfelini genişləndirmək üçün imkanları da genişdir, xüsusilə də bölgələrdə böyük müştəri kontingenti formalaşıb. Bölgələrdə fəaliyyət göstərən BOKT-lar kənd təsərrüfatı, bağçılıq, kiçik fermer təsərrüfatları, mikro və kiçik biznes subyektləri üçün ən sərfəli maliyyələşmə ünvanıdır. Bu qurumların girov mexanizmi də banklardan müəyyən qədər yumşaqdır, BOKT-lar daha çox qızıl-zinət əşyalarının girovu ilə kredit verir ki, bölgədə çalışan kiçik sahibkarlar üçün də bu əlçatanlıq baxımından sərfəli sayılır. Eləcə də hazırda rayonlarda yaradılan ailə kəndli təsərrüfatlarına verilən kreditlərin də əsas təchizatçısı BOKT-lardır.

Bütün bu amillər maliyyə bazarında böyük maliyyə təchizatçısı institutu kimi BOKT-ların iqtisadiyyatın real sektorlarının kreditləşməsində və biznes üçün əsas mənbələrdən birinə çevrilməsində daha aktiv fəal yer almasını şərtləndirir.

### Kiçik biznes və ailə təsərrüfatlarının dayağı

Hazırda ölkə iqtisadiyyatı böyüyür, biznesin sayı və maliyyə ehtiyacları da artır. Yeni inkişaf meyarları biznes sektorunun ildə milyardlarla manat kredit tələbatının qarşılanmasını ehtiva edir. Dövlətin öz güzəştli maliyyə təminatı siyasəti, eləcə də, kommersiya banklarının yerli resursları hesabına ayırdığı kreditlərin həcmi yenə də biznesin tələbatını ödəmir. Ona görə də, qeyri-bank qurumlarının da bu prosesdə fəal rol alması təşviq edilir.

### Məsafədən kreditləşmə

Mərkəzi Bank bu çağırışları nəzərə alaraq bank olmayan kredit təşkilatlarının fəaliyyətinin genişlənməsinə yol açmağa çalışır. Ötən il “Bank olmayan kredit təşkilatları haqqında” qanuna edilmiş dəyişikliklər nəticəsində BOKT-lara müştərilərə kreditlərin verilməsi üçün hesabın açılması, kredit kartlarının emissiyası kimi hüquqlar verilib. BOKT-lar banklarla müqavilələr əsasında “co-brend” kartlar olan adsız kartlardan istifadə edirdisə, hazırda kart emissiya etmək hüququ əldə etmək hüququ qazanıb. Yaxın vaxtlarda onların Mərkəzi Bankda müxbir hesabının açılması təmin edildikdən sonra kart emissiyasına da başlanılacaq və nəticədə bu qurumların kapital bazarlarına inteqrasiyası genişlənəcək. Həmçinin, BOKT-lara müəyyən səlahiyyətlərin verilməsi müştərilərlə əlaqəsini artıracaq. Xüsusən də kiçik və orta biznesin maliyyə ehtiyaclarının ödənilməsində mikrokredit təchizatı zəncirində payını artıra bilər.

Beləliklə, bank olmayan kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi və “Mikromaliyyə Modeli üzrə Strateji Çərçivə” sənədində əlavə imkanların yaradılması onların alternativ maliyyə xidmətlərinə çıxışını təmin edəcək, yeni maliyyə məhsullarının hazırlanmasına şərait yaradacaq. Ümumilikdə, BOKT-ların fəaliyyətinin tənzimlənməsindəki dəyişikliklər maliyyə xidmətlərinin əlçatanlığının genişləndirilməsində mühüm rol oynamaqla, əlavə xidmətlərin göstərilməsi və innovativ kredit məhsullarının hazırlanmasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Hüquqi dövlət quruculuğunda gənclərin rolu

## “Suverenlik və Konstitusiya: Gəncliklə gələcəyə” forumu keçirildi

Ölkəmizdə vətəndaş cəmiyyəti hüquqi dövlət quruculuğunda əvəzolunmaz rola malikdir. Demokratik və müstəqil inkişaf edən ölkələrdə vətəndaş cəmiyyəti əsas etibarilə vətəndaş - şəxsiyyət amilinə əsaslanır. Belə ki, ölkəmizdə qanunlara, əxlaq və humanizim prinsiplərinə hörmət edilir. Vətəndaş cəmiyyəti dövlətlə sıx və qarşılıqlı əlaqədə olur, hətta bütün sahələrdə onun dəstəyinə arxalanır. Bu baxımdan vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu hər bir ölkə üçün öz aktuallığını qorumaqdadır.

Azərbaycanda da bu sahədə davamlı islahatlar aparılır. Ölkəmizin hər bir vətəndaşın qarantına çevrildiyinin bütün dünyada qəbul olunması heç də təsadüfi sayılmır. Çünki Azərbaycanda vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Nəzərə almaq lazımdır ki, vətəndaşların hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyətindən, nə də hüquqi dövlətdən danışmaq olmaz. Elə buna görə də dövlətimiz vətəndaş hüquqlarının və azadlıqlarının keşiyindədir.

Məlumdur ki, hüquqi, demokratik və dünyəvi dövlətin əsaslarını yaratmaq üçün Azərbaycanın ilk Konstitusiyası hazırlanıb və 1995-ci il noyabrın 12-də referendumda xalq tərəfindən qəbul edilib. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunub. İnsan hüquq və azadlıqlarına, habelə onların təminatlarına xüsusi yer ayrılıb, onların təmin edilməsi isə dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilib.

### Mühüm forum baş tutdu

Dünən “Suverenlik və Konstitusiya: Gəncliklə gələcəyə” mövzusunda forum keçirilib. Forum Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin və Azərbaycan Dillər Universitetinin (ADU) birgə təşkilatçılığı ilə baş tutub.

Bildirilib ki, 18 may - 18 iyun tarixləri ölkəmizdə “İnsan hüquqları aylığı” elan edilib. Həmin təşəbbüsə qoşulmaqla insan hüquqlarına, vətəndaş cəmiyyətinə həsr olunmuş silsilə maarifləndirmə tədbirləri keçirilir.



### Hüquqi dövlət quruculuğunda gənclərin iştirakı

Tədbirdə çıxış edən ombudsman Səbinə Əliyeva müstəqil respublikamızın tarixi inkişaf yolunda dövlət suverenliyinin və Konstitusiyamızın milli hüquq sistemimizin təməlini təşkil etdiyini bildirib. O, Azərbaycan Konstitusiyasının ölkəmizin hüquqi dövlət kimi inkişafının əsaslarını müəyyən etdiyini, vətəndaş cəmiyyətini formalaşdırdığını vurğulayıb.

Ombudsman insan hüquqlarının qorunması, hüquqi dövlət quruculuğu və demokratik inkişafın davamlı şəkildə təmin edilməsinin dövlət qarşısında duran ən vacib vəzifələrdən olduğunu bildirib. S.Əliyeva bu istiqamətdə hər kəsin, o cümlədən gənclərin fəallıq göstərməsinin vacibliyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, bu gün keçirilən tədbirin də əsas məqsədi, gənclər arasında hüquqi biliklərin artırılması, onların vətənpərvərlik ruhunda formalaşdırılması və müasir dövrün çağırışlarına uyğun bilikli, hüquqi düşüncəyə malik və milli dəyərlərə sadiq vətəndaşlar kimi yetişməsinə töhfə verməkdir: “Müstəqil Azərbaycan gəncləri ölkəmizin bu günü və gələcəyidir. Konstitusiyamızın və suverenliyimizin qorunması, insan hüquqlarına hörmət və hüququn aliliyi prinsiplərinin yaşadılması və inkişaf etdirilməsi savadlı və peşəkar mütəxəssislər kimi yetişən gənclərin əlindədir. Biz hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması prosesində gənclərin fəal iştirakını vacib hesab edir və bunu dəstəkləyirik”.

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**

### Vətən cəmiyyətinin formalaşmasında dövlətçilik irsi

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla diqqətə çatdırıb ki, ölkəmizin suverenliyinin möhkəmləndirilməsi, vətən cəmiyyətinin formalaşması, insan hüquqlarının qorunması və müstəqil dövlət quruculuğu zəngin dövlətçilik irsi kontekstində inkişaf edir. Onun sözlərinə görə, Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi gündən etibarən hüquqi dövlət quruculuğu prosesinə xüsusi önəm verib və bu istiqamətdə böyük nailiyyətlər əldə olunub.

Kamal Abdulla çıxışı zamanı milli dəyərlərin qorunmasının və hüquqi şüurun formalaşdırılmasının cəmiyyətin gələcək inkişafında mühüm rol oynadığını qeyd edib. Rektor belə tədbirlərin gənclərin hüquqi biliklərinin artırılması, onların vətəndaş məsuliyyətinin dərk olunması və fəal sosial mövqe nümayiş etdirməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

*Yeganə*

# Kəngərliyə 2-ci köç!

## Ağdama yeni nəfəs verilir...

İşğaldan azad edilmiş ərazilərimiz bu gün yenidən çiçəklənir, doğma sakinlərini qarşılamağa davam edir. Dövlət siyasətimiz həmin ərazilərin müasir tələblərə uyğun qurulmasına, əzəli Qarabağ torpaqlarında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Artıq keçmiş məcburi köçkünlərimizin doğma yurdlarından səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın qayıtması nəzərdə tutulur.

**Yeni dövrə qədəm qoyan Ağdam!**

Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. 1993-cü il iyul ayının 23-də Ağdamın işğal tarixini 20 noyabr 2020-ci il qələbə tarixi ilə əvəzlədi. Dövlət başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. Beləliklə, 27 ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalandı.

**2544 nəfər üçün planlaşdırılıb**

Ağdamın yeni həyat başladığı kəndlərindən biri Kəngərlidir. Bu il mayın 10-da Prezident İlham Əliyev Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib, sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Qeyd edək ki, Ağdamən mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

**Daha 50 ailə...**



Ötən gün isə Kəngərliyə növbəti - ikinci köç baş tutub. Bu mərhələdə kəndə 50 ailə - 207 nəfər köçürülüb.

*Yeganə BAYRAMOVA*

# Daşınmaz əmlak bazarında canlanma

## Son bir ildə mənzil bazarında qiymətlər 14,4 faiz bahalaşıb

2025-ci ilin birinci rübündə Bakıda mənzillərin qiymətlərində yenidən bahalaşma qeydə alınıb. Qiymət artımı həm köhnə, həm də yeni inşa olunan binalarda müşahidə edilir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin birinci rübündə əmlak qiymətləri indeksində 2024-cü ilin dördüncü rübü ilə müqayisədə 4,4 faiz, o cümlədən ilkin mənzil bazarı üzrə 2 faiz, təkrar mənzil bazarı üzrə isə 4,5 faiz artım olub. Birinci rübdə mənzil bazarının qiymət indeksində 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,4 faiz, o cümlədən ilkin mənzil bazarı üzrə 12,9 faiz, təkrar mənzil bazarı üzrə isə 14,4 faiz artım baş verib.

Mərkəzi Bank (MB) da ilkin və təkrar bazar üzrə qiymətlərin artmaqda olduğunu təsdiqləyib. Tənzimləyicidən verilən açıqlamaya görə, 2020-ci ildə pandemiya ilə əlaqədar daşınmaz əmlak bazarında qiymətlərdə nisbətən sabitlik qeydə alınsa da, lakin sonrakı illərdə artım müşahidə edilib. Bütövlükdə, 2020-ci ilin sonu ilə müqayisədə mənzillərin qiymətləri 32,4 faiz bahalaşıb.

### 1900 manatdan 5000 manatadək...

Mövcud vəziyyət, ipoteka kreditləşməsində də özünü göstərməkdədir. MB-nın məlumatına görə, bankların daxili ipoteka faizlərində artım nəzərə çarpır. İpoteka və Kredit Zəmanəti Fondu hesabına verilmiş ipoteka kreditləri üzrə faiz dərəcələrində əhəmiyyətli dəyişiklik müşahidə edilməsə də, bankların daxili resursları hesabına verilən ipoteka kreditləri üzrə faiz dərəcələri artmaqdadır. Daxili resurslar hesabına verilmiş ipoteka kreditlərinin ümumi ipoteka portfelində çəkisinin artması ipoteka kreditləri üzrə orta faiz dərəcələrinin artmına gətirib çıxarıb.

Hazırda ən baha mənzillər Bakının Səbail rayonunda (1 kv.metri  3800-5000 manat) təklif edilir. Nizami rayonunda 1 kv.metr mənzil 2800 - 3000 manat, Nərimanov rayonunda 2550-3900 manat, Nəsimi rayonunda 2400 - 4140 manat, Yasamal rayonunda 2200 - 3990 manat arasında dəyişir. Binəqədi rayonunda yeni tikililərin orta bazar dəyəri 2715 manat, köhnə tikililərin orta bazar dəyəri 2409, ümumi orta bazar dəyəri 2562 manatdır. Suraxanı rayonunda yeni tikililərin orta bazar dəyəri 1990 manat, köhnə tikililərin orta bazar dəyəri 1681 ümumi orta bazar dəyəri 1836 manat təşkil edir. Xəzər rayonunda yeni tikililərin orta bazar dəyəri 2079 manat, köhnə tikililərin orta bazar dəyəri 1745, ümumi orta bazar dəyəri 1912 manatdır. Digər ətraf rayonlarda da köhnə və yeni tikililərin orta bazar dəyəri 10-12 faiz bahalaşıb.



### Daşınmaz əmlakın bahalaşmasının səbəbi nədir?

Bahalaşmada əsas rol oynayan amil tikinti sektorunda canlanmanın baş verməsi, inşaatda mal-material, tikinti avadanlıqlarına tələbin artması və tikintinin ümumi maya dəyərinin yüksəlməsidir. 2025-ci ilin yanvar-aprel aylarında əsas kapitala yönəldilmiş investisiyaların 3 milyard 970  milyon manatı və ya 78 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub. Həmin sərmayələrin 862,9 milyon manatı isə birbaşa yaşayış evlərinin tikintisinə xərclənib. Ötən illə müqayisədə insanların mənzil şəraitinin yaxşılaşması üçün xərclənmiş vəsaitlərin həcmi təxminən 30 milyon manat artıb. Beləliklə, həm tikinti-bərpa işlərinə yönəlmiş kapitalın, həm də birbaşa mənzil tikintisinə sərf olunmuş vəsaitlərin artması bu sahədə tikinti materiallarına olan tələbin böyüməsini təşviq edib və nəticədə bazarda bahalaşmaya təsir göstərib.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc hesab edir ki, daşınmaz əmlak bazarında qiymət artımı ilk növbədə, tələbin artması ilə bağlıdır. Tələb artdıqca yeni binaların tikintisi üçün torpaq sahələri qalmır və paralel olaraq torpaq kəskin bahalaşır. Bu da tikintinin maya dəyərinə təsir göstərir. Qiymət artımına bölgələrdən insanların paytaxta axınının çoxalması da təsir edir, Bakıya gələn insanların kirayə mənzillərə tələbatının artması yığım imkanları olan şəxslərin yeni mənzillər almasını stimullaşdırır. Belə ki, maliyyə yığımını əmlaka yönəldən şəxslər tikinti kooperativlərini də stimullaşdırır ki, bu amil də yeni tikililərdə tələb və qiymətlərə təsir göstərir. Digər faktor Rusiya və Ukrayna müharibəsi ilə əlaqədardır, son 3 ildə Azərbaycana gələn insanların sayı artıb və bu proses davam etməkdədir. Ölkəyə qayıdanların böyük bir qismi, xüsusilə də Ukraynadan Azərbaycana gələnlər öz əmlaklarını və obyektlərini, ticarət və biznesdən əldə etdikləri gəlirləri də ölkəmizə daşıyırlar, həmin vəsaitlərin əsas hissəsini isə daşınmaz əmlaka yönəldirlər.

### Yeni söküntü tədbirləri mənzilləri bahalaşdıracaq

Mənzillərin bahalaşmasına təsir göstərən faktorlardan biri cari ilin aprel ayından yeni söküntü işlərinə başlanmasıdır. Hazırda Bakı şəhərinin bir sıra ərazilərində dövlət tərəfindən söküntü və köçürülmə ilə bağlı işlərə start verilib. Paytaxtın “Sovetski” adlanan ərazisində növbəti söküntü planına əsasən, köhnə tikililərin, yaşayış və qeyri - yaşayış  obyektlərinin köçürülməsi, söküntü və abadlıq işlərinin həyata keçirilməsi üçün hazırda əmlak sahibləri ilə müvafiq danışıqlar aparılır. Bu ərazidəki söküntü işləri istismar müddəti başa çatan və tarixi əhəmiyyət daşımayan, əsasən qəzalı vəziyyətdə və aşınma dərəcəsi olduqca yüksək olan bina və tikililəri əhatə edir. Təkcə bu ərazi üzrə 6000-dən çox evin sökülməsi nəzərdə tutulur.

Eləcə də digər ərazilərdə köhnə tikililər, istismar müddəti başa çatan kommunikasiya və mühəndis qovşaqları, qəzalı vəziyyətdə olan su və kanalizasiya xətlərinin dəyişdirilməsi ilə əlaqədar söküntünün başlanması planı hazırlanıb. Həmin plana əsasən, Bakının Sabunçu, Nəsimi, Xətai, Nərimanov və digər rayonlarında istismar müddəti başa çatmış, qəzalı vəziyyətdə olan binalar, evlər, qeyri-yaşayış obyektləri söküləcək. Bu isə 10 mindən çox mənzlilin dövlət ehtiyacları üçün alınması deməkdir.

Bundan başqa, paytaxtın yeni Baş Planı, “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” və digər mühüm dövlət sənədlərindən irəli gələn tədbirlərin icrası ilə əlaqədar mühəndis-kommunikasiya qurğularının tamamilə yenilənməsi, nəqliyyat və sosial infrastrukturların, kommunal sistemlərin əsaslı şəkildə bərpası, “yaşıl və təmiz şəhər” prinsiplərindən irəli gələn ətraf mühitin təmizlənməsi və ərazilərin abadlaşdırılması nəzərdə tutulur ki, bu işlərə də yaxın vaxtlarda start veriləcək.

Nəticədə, təkcə dövlət ehtiyacları üçün evlərin və mənzillərin alınması sayəsində minlərlə əmlak sahibinin yeni evlərə ehtiyacı yaranacaq. Bu isə əmlak bazarında qiymətlərin bahalaşmasında yeni dalğa olacaq.

*E.CƏFƏRLİ*

# Türkiyədə növbəti dəfə “yeni Konstitusiya” anonsu...

Türkiyədə yeni Konstitusiyanın qəbul edilməsi zərurəti zaman-zaman gündəmə gəlir. Ancaq bu məsələ hər dəfə müxtəlif səbəblərdən ertələnir. Xatırladaq ki, hakim Ədalət və İnkişaf Partiyası hələ 2021-ci ildə ölkənin yeni Konstitusiyasının layihəsini hazırlayıb təqdim etmişdi. Lakin siyasi partiyalar arasında əsas qanunun dəyişdirilməsi ilə bağlı konsensus əldə olunmamışdı.

**Ərdoğan: Biz bu prosesi milli iradəyə söykənərək həyata keçirməliyik**

Bugünlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə ölkənin yeni Konstitusiyaya ehtiyacı olduğunu bəyan edib. “Türkiyənin ehtiyaclarına cavab verən, daha demokratik və müasir bir Konstitusiya lazımdır. Biz bu prosesi milli iradəyə söykənərək həyata keçirməliyik”,- deyən Prezidentin sözlərinə görə, yeni əsas qanun cəmiyyətin bütün təbəqələrinin iştirakı ilə, geniş ictimai konsensus əsasında hazırlanmalıdır. “Yeni Konstitusiyanın hazırlanması bir qrupun deyil, bütün millətin işi olmalıdır. Biz birlikdə bu tarixi addımı atmalı və Türkiyəni gələcəyə daha güclü şəkildə aparmalıyıq”, -deyə Ərdoğan vurğulayıb.

Prezident Ərdoğanın bu fikirləri ölkədə siyasi və hüquqi sistemin yenilənməsi istiqamətində yeni bir mərhələnin başlaya biləcəyinə işarə kimi qiymətləndirilir. Xatırladaq ki, Türkiyədə ilk Konstitusiya 1921-ci ildə cümhuriyyətin banisi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə “Teşkilat - ı esasiye kanunu” adı ilə hazırlanaraq qəbul olunub. Həmin sənəd sonrakı dövrlərdə ölkədəki ictimai-siyasi proseslərə uyğun olaraq bir neçə dəfə dəyişdirilmişdi. Türkiyədə hazırda qüvvədə olan Konstitusiya isə 7 noyabr 1982-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilib. Bu Konstitusiyanın layihəsi ölkədə hərbi çevrilişindən sonra hərbi rəhbərliyin əmri ilə Məşvərət Məclisi tərəfindən hazırlanıb və 23 sentyabr 1982-ci ildə Məşvərət Məclisi, 18 oktyabr 1982-ci ildə Milli Təhlükəsizlik Şurası tərəfindən qəbul edilib.



**Qüvvədə olan Konstitusiyaya dəyişikliklər edilsə də...**

Konstitusiya referendum nəticəsində 91,37 faiz lehinə olmaqla qəbul olunub. Konstitusiyanın ilk üç maddəsinin dəyişdirilməsi və ona dəyişiklik təklif edilməsi dördüncü maddə ilə qadağandır. Türkiyə konstitusiyasına 1987-ci, 2007-ci, 2010-cu, 2017-ci illərdə dəyişiklik edilib. Konstitusiyada 7 bölmə, 177 maddə və 16 müvəqqəti maddə var. 1982-ci il Konstitusiyası, əsasən, 12 sentyabr 1980-ci il tarixindən əvvəl ortaya çıxan problemləri aradan qaldırmaq və qanunların icrası zamanı yaranan narahatlıqlara son vermək üçün hazırlanmış əsas hüquqi aktdır. O dövrdə əsas çağırışlardan biri dövlətin gücləndirilməsi ilə bağlı idi. Ana Yasada bu məqama xüsusi diqqət çəkilib. Belə ki, əsas qanunda dövlətin güclənməsi onun icraedici gücü ilə əlaqələndirilib, hətta dövlətin fövqəladə hallarda Konstitusiyaya zidd qanunlar qəbul etməsinə belə icazə verilib. İcraedici orqanların qərarlarına mühakimə orqanı nə qədər nəzarət etsə də, hökumətin hətta insan hüquqlarına qarşı olan qərarlar qəbul etməsinə də şərait yaradılıb.

**İlyas Hüseynov: Türkiyə daha demokratik və müasir dövlətə çevriləcək**

Bəs yeni Konstitusiya Türkiyə üçün nə vəd edir? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, konstitusiya hər bir ölkənin idarə edilməsində, dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsində, hüquqi dövlət quruculuğu prosesində ən önəmli sənəddir. Bu baxımdan, labüd olan inkişaf bəzi məqamlarda müəyyən hüquqi sənədlərin də yenilənməsini, müasir tələblərə uyğunlaşdırılmasını tələb edir. Yeni konstitusiyanın qəbulu və ya ona hər hansı bir dəyişiklik, əlavə isə yalnız ümumxalq səsverməsi - referendum yolu ilə baş tutur. Təbii ki, indiki halda Türkiyədə Ana Yasanın dəyişdirilməsi və ya yenidən qəbulu bu bağlı məsələ qarşıdakı perspektivdə ölkənin daha uğurlu inkişafının təmininə yönəlib.

Politoloqun sözlərinə görə, Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə ötən illər ərzində böyük inkişaf yolu keçib: “Bu gün qardaş olkə regional liderlikdən çıxaraq qlobal aktora çevrilib, Yaxın Şərqdə dominant rolu və ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb. PKK terror təşkilatının özünü buraxması da burada vacib faktordur. Türkiyə dünyada bir sıra münaqişələrin həllinə özünün ədalətli yanaşmaları ilə sanballı töhfələrini verir ki, bunun da arxasında həm də güc amili dayanır. Suriyada baş verən proseslərdə, bu ölkədəki yeniliklərdə Türkiyənin böyük təsiri var”.

Həmsöhbətimizin fikrincə, hazırkı inkişaf mərhələsi və qarşıdakı hədəflər yeni çağırışlar diqtə edir. Lakin Əsas Qanundakı bəzi məhdudiyyətlər bu çağırşları qarşılamağa imkan vermir. “Türkiyə hakimiyyətinin bəyan etdiyi kimi, ölkənin bundan sonrakı yolu demokratiya və qanunun aliliyi yoludur. Son prezident seçkilərində qardaş ölkə dünyaya bir demokratiya dərsi verdi. Müasir Türkiyənin demokratik imici Konstitusiya qaydasında da möhkəm şəkildə təsbit edilməlidir. Konstitusiya islahatları aparmaq istəyən Ərdoğan iqtidarı Türkiyəni dünyaya daha müasir və demokratik dövlət kimi təqdim etmək niyyətindədir”,-deyə İ.Hüseynov vurğulayıb.

*Nardar BAYRAMLI*

# III raunda hazırlıq: İstanbulda görüşənə qədər...

## Tramp yol axtarır, Putin gözləyir, Zelenski şərt irəli sürür

Rusiya ilə Ukrayna arasında İstanbulda keçirilən görüş fundamental dəyişikliklə yadda qalmadı - başqa sözlə, silahlı qarşıdurma hələ də davam edir. Tərəflərin iddialarından geri çəkilməməsi, hətta köhnə-yeni şərtlərdə israrlı olmaları münaqişənin tənzimlənməsi fazasını gecikdirir. Xatırladaq ki, görüşdən öncə verilən bəyanatlara görə, rəsmi Kiyev:

- təhlükəsizlik təminatları, eləcə də ölkənin ərazi bütövlüyü və suverenliyinin tam bərpasını;

- NATO-ya dəvət edilməsini və ya təhlükəsizlik zəmanətləri çərçivəsində NATO-nun himayəsi altına alınmasını;

- ölkədə Avropa sülhməramlı qüvvələrinin yerləşdirilməsini;

- Ukraynanı nüvə silahı ilə təmin etmək kimi bir növ çəkindirmə paketinin qəbul edilməsini;

- Krım, Donetsk, Luqansk, Zaporojye və Xersonun Rusiyanın nəzarətindən çıxmasını;

- Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinə qayıtmasını tələb edirdi.

Rəsmi Moskvanın ən əsas şərtlərinə isə:

- Ukraynanın bloklara qoşulması (xüsusilə NATO-ya);

- Nüvə silahının verilməsi məsələsinin müzakirə edilməməsi, tərksilah olunması, denazifikasiyası;

- Ukraynada rusdilli vətəndaşların hüquq, azadlıq və mənafelərinə tam təminat verilməsi;

- Nəhayət, ilhaq edilmiş Krım, Donetsk, Luqansk, Zaporojye və Xerson bölgələrinin Rusiya əraziləri kimi tanınması daxil idi. Şərtlərə əsasən, Moskva böhran aradan qaldırıldıqdan sonra Ukrayna və Avropa ilə tədricən mehriban qonşuluq münasibətləri qurmağa başlamağı və bundan sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin, Qərb və Avropa dövlətlərinin, qitədəki bütün dövlətlərin maraqlarını nəzərə alan “Avrasiya təhlükəsizlik sistemi” yaratmağı təklif edirdi.

### Rollar dəyişir...

Amma danışıqlar daha çox humanitar motiv daşıdı - bunun isə bir çox səbəbi vardı. İlk növbədə, Ukrayna verəcəyi qərarlarda tək deyildi. Ən maraqlısı isə odur ki, hətta Ukraynanı dəstəkləyən kollektiv Qərb koalisiyasında rollar dəyişib. 2022-ci ildə müharibənin ilk günlərində Bayden -Blinken administrasiyası sülhdən tam imtina etmiş halda idi, bunun əksinə isə Avropa kontingentinin aparıcı liderləri intensiv şəkildə Kremli ziyarət edirdi. Ard-arda Şolts, Makron, hətta Avstriyanın Federal Kansleri Karl Nehammer Moskvaya səfər edərək müharibənin bitirilməsi üçün cəhdlər göstərdilər. Donald Trampın hakimiyyətə gəlişi ilə Vaşinqtonun müharibəyə baxış bucağı dəyişib. Artıq Ağ ev sülh üçün “qollarını çırmayıb”, bunun əksinə, Aİ ciddi-cəhdlə danışıqlar fazasına “mane olur”. İstanbulda da eyni halın şahidi olundu - masadan kənarda qalan Aİ-nin aparıcı dövlətləri Ukrayna nümayəndə heyəti ilə görüşdü. Nümayəndə heyətinin üzvü Yermak bildirmişdi ki, Ukrayna nümayəndə heyəti İstanbulda Böyük Britaniyanın milli təhlükəsizlik müşaviri Conatan Pauell, Fransa prezidentinin müşaviri səfir Emmanuel Bonne və Almaniya Xarici İşlər Nazirliyinin rəsmisi Günter Sautter ilə görüşüb. Həm də bu səbəbdən İstanbulda münaqişənin həlli ilə bağlı tam qərar verilmədi...



### İki saatdan artıq üçüncü söhbət: Avropa “uzaqdan” boylanır

Amma bu son deyil - Ukrayna müharibəsinin bitməsi istiqamətində aparılan danışıqlar prosesi artıq çoxşaxəli xarakter daşımağa başlayıb. Düzdür, danışıqlar prosesinin nüvəsi kimi İstanbul çıxış edir. Bununla belə, Ukraynanın iştirakı olmadan prosesin fərqli qolu da inkişaf etməkdədir. ABŞ Prezidenti Tramp ilə Rusiya dövlət başçısının mayın 19-da iki saatdan artıq çəkən telefon danışığı da bunu təsdiqləyir. Trampın ABŞ prezidenti seçilməsindən sonra Rusiya dövlət başçısı ilə aparılan üçüncü telefon danışığının ardından hər iki lider qısa açıqlamalar veriblər, amma təfərrüatlara varmayıblar. Putin Rusiya və Ukrayna arasında mümkün sülh sazişinin bağlanması üçün aparılan danışıqların bərpasına verdiyi dəstəyə görə ABŞ prezidentinə təşəkkür edib. O, həmçinin bildirib ki, Rusiya gələcək sülh müqaviləsi haqqında memorandum üzərində işləməyə hazırdır. “Biz ABŞ prezidenti ilə razılaşdıq ki, Ukrayna tərəfi öz mövqelərini, məsələn, nizamlanma prinsipləri, mümkün sülh sazişinin vaxtı və s. istiqamətlərini təqdim etsin. O cümlədən müvafiq razılaşmalar əldə olunarsa, müəyyən müddətə mümkün atəşkəsin müəyyənləşdirilməsi ilə gələcək sülh müqaviləsi ilə bağlı memorandum təklif ediləcək”.

Donald Tramp Putinlə söhbətinin “tonunu və ruhunu” “əla” adlandırıb. Onun sözlərinə görə, Moskva və Kiyev dərhal atəşkəs haqqında danışıqlara başlayacaq. “Rusiya prezidenti Vladimir Putinlə iki saatlıq söhbəti indicə bitirdim. Düşünürəm ki, çox yaxşı keçdi. Rusiya və Ukrayna dərhal atəşkəs və ən əsası, müharibənin dayandırılması ilə bağlı danışıqlara başlayacaqlar. Bunun şərtləri hər iki tərəf arasında müzakirə olunacaq, çünki danışıqların başqa heç kimin bilmədiyi təfərrüatlarını onlar bilirlər”, - o, sosial şəbəkədə yazıb.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə bildirib ki, Amerika Birləşmiş Ştatları Rusiya ilə Ukrayna arasında əlaqə yaratmaqda effektiv vasitəçilik edib. “Təbii ki, ABŞ Rusiya Federasiyası ilə Ukrayna arasında çox səmərəli vasitəçilik xidmətləri göstərib. Moskva ilə Kiyev arasında əlaqə qurulub və indi birbaşa əlaqələr həyata keçirilir”, - Peskov izah edib.



### Zelenskidən Trampa “xəbərdarlıq” - bizsiz razılaşmayın...

Ukrayna da danışıqların davam etməsində, hətta memorandumun imzalanmasında maraqlı görünür. Ukrayna prezidenti Volodimir Zelenski ABŞ prezidenti Donald Trampla telefon danışığından sonra bildirib ki, Ukrayna münaqişənin nizamlanması üçün Rusiya ilə memorandum imzalaya bilər. “İkitərəfli formatda müvafiq memorandum ola bilər. Bunun nəticəsində xəritə formalaşa, sonra isə iki tərəf arasında atəşkəs haqqında saziş bağlana bilər”, - deyə o bildirib.

Zelenski əlavə edib ki, gələcək memorandumun təfərrüatları hələlik ona məlum deyil: “Əgər Rusiya tərəfi memorandum təklif edərsə, bizim tərəfimizdən müvafiq siqnalları aldıqdan sonra biz ruslardan memorandum və ya təkliflər alaraq öz baxışımızı formalaşdıra biləcəyik”. Onun sözlərinə görə, ABŞ prezidenti bildirib ki, memorandum atəşkəsdən əlavə, gələcək nizamlanma planlarını formalaşdıracaq.

Ukrayna prezidenti Volodimir Zelenski ABŞ rəhbəri Donald Tramp və Avropa liderləri ilə telefon danışıqlarında Rusiyanın ərazi tələblərinin müharibəni uzatmaq üçün bəhanə olduğunu bildirib. Onun sözlərinə görə, Tramp hesab edir ki, Rusiya kompromislərə hazırdır və onun üçün ən vacib məsələ Kiyevə və Moskva arasında birbaşa danışıqların başlamasıdır: “Rusiyanın bu müharibəyə son qoymağa real hazır olduğunu nümayiş etdirməsi üçün ilk addım kimi atəşkəs rejimini görmək istərdim. Ukrayna ordusunun ərazilərimizdən çıxarılması heç vaxt baş verməyəcək. Biz bununla razılaşa bilmərik. Ərazi bütövlüyümüz məsələsi bizim qırmızı xəttimizdir”, - əlavə edib.

Zelenski onu da deyib ki, “mən Trampdan Putinlə söhbətindən əvvəl xahiş etdim ki, bizsiz Ukrayna ilə bağlı qərarlar qəbul etməsin. Bizim üçün bunlar əsas və çox vacib şeylərdir”.

Qeyd edək ki, telefon danışığına Avropa Komissiyasının Prezidenti Ursula Fon der Leyen, Fransa Prezidenti Emmanuel Makron, İtaliyanın Baş naziri Corciya Meloni, Almaniya Kansleri Fridriks Mers və Finlandiya Prezidenti Aleksandr Stubb da qoşulub.

### İstanbul, yoxsa Vatikan? - hər kəs “birincini” seçir...

Danışıqlar prosesinin qızğın bir dövründə ortaya maraqlı nüans çıxıb. ABŞ uzunmüddətili vasitəçi kimi çıxış etmək fikrində deyil - Tramp açıqlamasında deyib ki, Ukrayna münaqişəsi Avropanın problemi olaraq qalmalı və ABŞ müdaxilə etməməli idi. Onun sözlərinə görə, ABŞ Ukraynada müharibənin nizamlanmasında irəliləyiş olmasa, öz rolunu Avropaya ötürəcək: “Avropada yaranan vəziyyət orada qalmalı idi, lakin biz müdaxilə etdik, çünki əvvəlki administrasiya bizim bu işə qarışmalı olduğumuzu hiss edib. Nəticədə ABŞ məsələyə Avropadan daha çox cəlb edilib”.

Bu açıqlamanı “maraqlı” edən detal isə Trampın “yeni vasitəçi” təklifi olub. O bildirib ki, Vatikan Rusiya və Ukrayna arasında danışıqlara ev sahibliyi etməkdə son dərəcə maraqlıdır. “Vatikan Papa vasitəsilə danışıqlara ev sahibliyi etməkdə çox maraqlı olacağını bildirib”, - Amerika lideri yazıb.

Bir çox siyasətçilər bunu mümkünsüz sayır. Birincisi, yeni Papa XIV Leonun amerikan əsilli olması Trampın açıqlamasını “trend” edib. İkincisi isə, Ukarayna və Rusiya “provoslav” məzhəbinin daşıyıcıları, Vatikan “katolik” məzhəbinin mərkəzidir. Qərb siyasətçiləri isə İstanbulun bu danışıqlar üçün ən uyğun və ən fundamental məkan olduğunu təsdiqləyirlər. Çünki iki dövlət arasında barışılmaz sayılan bir çox nüansların razılaşdırılması məhz Türkiyənin vasitəçiliyi ilə baş verib. Taxıl sazişləri, XİN başçılarının ilk görüşü, əsirlərin dəyişdirilməsi ilə bağlı razılaşmalar məhz İstanbulda qeydə alınıb. Bu səbəbdən də, İstanbulun III raund üçün tərəfləri gözlədiyi bildirilir...

### Yeni dövr, yeni münasibətlər...

Qeyd edək ki, ABŞ hətta Ukrayna müharibəsinin tənzimlənməsi üzərindən yeni dönəmdə özünün iqtisadi ön prioritetləri üçün çalışdığını bir daha ortaya qoyur. Tramp Körfəz ölkələrinə səfərinin, Suriya ilə bağlı fundamental qərarlarının ardından Rusiya ilə münasibətləri normallaşdırma ehtimalını da irəli sürüb - Ukraynanın yeraltı sərvətləri üzərindən müharibə tərəflərinin birini özünün iqtisadi tərəfdaşına çevirən Vaşinqton indi də Kremllə bağlı perspektivdən söz açıb. Bildirib ki, Rusiya-Ukrayna münaqişəsi başa çatdıqdan sonra Rusiya ilə Ukrayna arasında ticarət-iqtisadi əməkdaşlıq potensialı məhdudiyyətsizdir. “Ukraynada bu fəlakət bitəndə Rusiya ABŞ-la genişmiqyaslı ticarət etmək istəyir və mən buna razıyam. Rusiyanın böyük sərvət və iş yerləri yaratmaq üçün böyük imkanları var. Potensial məhdudiyyətsizdir”, - Tramp bildirib.

*P.İSMAYILOV*

# Aİ müdafiə fondu yaradır

## Vahid ordunun yaradılması istiqamətində addım

Avropa İttifaqı özünü müdafiə etmək üçün fond yaradır - belə ki, Aİ-nin üzv ölkələri Avropa üçün Təhlükəsizlik Fəaliyyəti (SAFE) kimi tanınan müdafiə qabiliyyətini gücləndirməyə yönəlmiş 150 milyard avroluq fond yaratmaq ilə bağlı razılıq əldə ediblər. Bu ilin mart ayında Avropa Komissiyası tərəfindən irəli sürülən bu təklifə əsasən, borclar və kreditlər hesabına xüsusi fondun əsası qoyulacaq - nəticə etibarı ilə bu fondun vəsaiti Aİ ölkələrinin təhlükəsizliyini təmin etmək, Ukraynanın və Aİ ilə qonşu olan bəzi ölkələrin müdafiə potensialını artırmaq və Avropanın hərbi sənayesini gücləndirmək üçün layihələrin həyata keçirilməsinə sərf olunacaq. Avropanın müdafiəsi üçün xüsusi əhəmiyyət kəsb edən layihələrdə hava hücumundan müdafiə və artilleriya sistemləri, raketlər və sursatlar, pilotsuz təyyarələrin istehsalına, o cümlədən kosmos, kiber, süni intellekt və elektron müharibə sahələrində potensialın təkmilləşməsinə daha çox diqqət ayrılacaq.

## Avropa sürətlə hərbiləşir

Bəzi beynəlxalq ekspertlər hesab edirlər ki, belə bir fondun yaradılması vahid Avropa ordusunun formallaşdırılması istiqamətində mühüm addımdır. Onların fikrincə, Aİ liderləri bu məsələdə qətiyyətli mövqe nümayiş etdirmək niyyətindədirlər. Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, son zamanlar Avropada intensiv hərbiləşdirilmə siyasəti aparılır: "Artıq Avropa İttifaqının strateji müstəqilliyi və hərbiləşdirilməsi ilə bağlı məsələlər Brüsselin ən önəmli gündəm mövzusuna çevrilib. Mart ayında Avropa Komissiyası tərəfindən 800 milyard avro dəyərində Avropanın yenidən silahlandırılması proqramı irəli sürüldü. Bu proqram çərçivəsində Aİnin hər bir üzv ölkəsi gələcək illərdə



hərbi sahəyə daha çox vəsait xərcləmək, eləcə də hərbi sahədə islahatlar həyata keçirmək və hərbi sənayeni gücləndirmək üçün öhdəliklər götürüblər. Sözsüz ki, bütün bunların hamısı iki səbəblə əlaqəlidir. Birinci səbəb Rusiya-Ukrayna müharibəsi ilə bağlıdır. Bu müharibə fonunda Aİ Rusiyanı özünə təhdid kimi görür və hesab edir ki, Ukraynadan sonra Rusiyanın hədəfində Avropa olacaq. Bu təfəkkür Aİ ölkələrini Rusiyaya qarşı bir çətir altında birləşməyə vadar edib. Digər səbəbə gəlincə, Tramp administrasiyası dövründə ABŞ böyük ehtimalla, Avropanın təhlükəsizliyinə əvvəlki münasibəti sərgiləməyəcək - Ağ Evin rəhbəri çıxışlarında dəfələrlə bəyan edib ki, Vaşinqton əvvəlki kimi Avropanın təhlükəsizliyinin təminatına milyardlarca dollar dəyərində vəsait xərcləməkdə maraqlı olmayacaq. Trampın bu davranışı Aİ liderlərini təhlükəsizlik məsələlərində ciddi olmağa sövq edib". S.Zahidov əlavə edib ki, 90-cı illərdə də Avropada hərbiləşmək və təhlükəsizlik məsələləri diqqət mərkəzində olub: "1992 - ci ildə Maastrixt sazişinin imzalanması ilə Avropa İttifaqının əsası qoyuldu. Bu sazişdə əks olunan əsas meyarlardan biri müdafiə və təhlükəsizlik məsələsi idi. Elə 90-cı illərin əvvəlində Aİ özünün müdafiəsi və təhlükəsizliyini təmin etmək üçün addımlar atmağa başladı. NATO isə buna etiraz etmirdi, əksinə dəstəkləyirdi. Çünki Aİ-nin o zamanki təhlükəsizlik siyasəti NATO-nun funksiyalarının tamamlayıcı rolunu oynayırdı. Həmin zaman Aİ özünün sülhməramlı qüvvələrini yaratmışdı. Həmin qüvvələr Balkanlarda sabitliyin və təhlükəsizliyin təmin edilməsində NATO və BMT-yə yardım edirdilər".

## NATO etiraz etməyəcək?

"Hesab etmirəm ki, Aİ-nin vahid Avropa ordusunun yaradılması istiqamətindəki təşəbbüsləri Aİ-NATO münasibətlərində ciddi problemlər yaradacaq. Əksinə, Avropanın müdafiə qabiliyyətinin möhkəmlənməsinə yönələn xüsusi fondun yaradılması NATO tərəfindən müsbət qarşılanacaq. Ona görə ki, Aİ və NATO Rusiyaya münasibətdə eyni mövqedən çıxış edirlər. Eyni zamanda NATO-ya üzv olan əksər ölkələr Avropa ölkələridir. Bu, Aİ ilə NATO arasında mövqelərin uzlaşmasında mühüm rol oynayır. NATO Aİ-nin bu təşəbbüsünü dəstəkləyəcək," - deyə S.Zahidov vurğulayıb.

## Nə ABŞ, nə də NATO Aİ-yə yardım əli uzadacaq

Politoloq İlyas Hüseynov qəzetimizə şərhində bildirib ki, özünü geosiyasi güc mərkəzi hesab edən Aİ-nin öz təhlükəsizliyinə diqqəti artırması təəccüblü görünmür.

"Avropa Siyasi Birliyinin Albaniyanın paytaxtı Tiranada 6-cı zirvə toplantısında Avropa məkanının təhlükəsizliyi ilə bağlı məsələlər ətraflı şəkildə müzakirə olunub. Artıq gördüyümüz kimi, Aİ ölkələri 150 milyard avro dəyərində xüsusi fond yaratmaq üçün razılığa gəliblər. Bu fond ilə bağlı sənədlərin təsdiqlənməsi üzərində intensiv işlər gedir. Bu, onu deməyə əsas verir ki, Aİ öz təhlükəsizliyini təmin etmək və heç bir xarici qüvvədən asılı olmamaq məsələsində qərarlıdır. Avropada belə düşünürlər ki, Aİ ağır vəziyyətə düşəcəyi təqdirdə nə NATO, nə də ABŞ ona yardım əli uzadacaq və Avropa öz təhlükəsizliyini özü qorumalı olacaq. Onu da qeyd edim ki, Rusiya-Ukrayna müharibəsi bu prosesi daha da sürətləndirib".

*Yunis ABDULLAYEV*

# QƏDİM İRƏVANIN "QIZIL ŞƏFƏQ"İ

Qərbi Azərbaycanda ana dilində yeganə mərkəzi mətbuat orqanı olan "Zəngi" qəzeti adında və fəaliyyətində böyük milli-mənəvi mənaları ifadə etdiyi üçün, bu adı heç cür həzm edə bilməyən Ermənistanın şovinist dairələri müxtəlif bəhanələr gətirərək onun adını dəyişdirib "Qızıl şəfəq" qoydular. Qəzetin adı dəyişdirilsə də, bu mətbu orqanın yaradıcı kollektivi sələfinin ənənələrini qoruyub saxlamış və daha da inkişaf etdirmişdir.



Bütün dünja proletarlarь birləşiniz!
QIJMƏTI 5 q.
XI il davamь
Qьzьl Şəfəq
Ermənistan O(b)F MQ və ESSÇ MIQ orqanь
№ 224 (1410)
Çymə
4
Oqtjabr
1935-ci il
Almanjada qommunist təşviqatь artmьşdьr
EQ (в) F MƏRKƏZI QOMITƏSINDƏ
Ermənistan firqə təşkilatlarьnda Berija joldaşьn mə'ruzəsinin təhlil edilməsinin gedişi haqqьnda

"Zəngi" qəzeti 1 yanvar 1929-cu ildən "Qızıl şəfəq" adı ilə nəşr olunmağa başladı. "Qızıl şəfəq" qəzeti Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Mərkəzi İcraiyyə Komitəsinin rəsmi mətbuat orqanı idi. Qəzet 4 səhifə həcmində, kiçik formatda, əsas hissəsi latın əlifbası ilə, sonuncu səhifəsi isə ərəb əlifbası ilə həftədə 2 dəfə nəşr edilirdi. Qəzetin redaktoru vəzifəsi isə müvəqqəti olaraq bu mətbu orqanın məsul katibi Əkbər Rizayevə həvalə edilmişdi. 7 aprel 1929-cu il tarixindən - 25-ci nömrəsindən qəzetin məsul redaktoru vəzifəsinə Mustafa Hüseynov təyin edilmişdir. Qəzet 19 yanvar 1929-cu il tarixindən - 5-ci nömrəsindən etibarən bütünlüklə latın əlifbası ilə nəşr olunmuşdu.

Rəsmi dövlət orqanı olan "Qızıl şəfəq" qəzeti daim Qərbi Azərbaycanda baş verən ictimai-ədəbi hadisələrin mərkəzində olmuş, respublikanın gündəlik həyatında baş verən məsələləri öz səhifələrində işıqlandırmışdı. Qəzet İrəvanda Azərbaycan ictimai, ədəbi-mədəni mühitində cərəyan edən bütün hadisələrə qarşı çox həssas idi. Elə bir ədəbi hadisə olmazdı ki, dərhal qəzetin səhifələrində işıqlandırılmasın.

"Qızıl şəfəq" qəzeti də öz sələfi "Zəngi" kimi mübariz idi və o vaxtlar mətbuata verilmiş nisbi azadlıqdan yetərincə bəhrələnə bilirdi. Amma bununla yanaşı, "Qızıl şəfəq" qəzeti də öz sələfi kimi çoxlu problemlərlə üzləşməli olurdu. Belə ki, redaksiyanın daimi binası olmadığı üçün ünvanlar tez-tez dəyişir, kağız problemi ortaya çıxır, həm də onun abunəçi məsələsi çox vaxt problemə çevrilirdi. Amma redaktordan tutmuş mürəttibə qədər hamı fədakarlıqla çalışır, əlindən gələni edirdi ki, qəzet müntəzəm nəşr olunsun. Bunun üçün Qərbi Azərbaycanda yaşayan azərbaycanlı ziyalılar Cəmil Əliyev, Həbib Məhəmmədzadə, Bilas Şadlinski, Əbülfət Rəhimov, Mirzə Əsgər Rizazadə, Əhməd Musayev, Cəfər Əhmədov və başqaları qəzetə abunə yazılmaqla bərabər, "Çağırış" devizi ilə bütün azərbaycanlı məktəblərinin müəllim və tələbələrini, ziyalıları, dövlət və rəhbər işçiləri də "Qızıl şəfəq" qəzetinə abunə olmaq üçün yarışa çağırırdı. Bu reklam xarakterli çağırış və müraciətlərdə qəzetə 10 nüsxə yazdırana bir neçə kitab hədiyyə edilirdi.

1929-cu illərdə qəzetin fəaliyyətinə nəzər saldıqda bir sıra bölgələrdə abunə və yayılmasının lazımi səviyyədə təşkil edilmədiyi, bəzi yerlərdə isə bu işin yaxşı təşkil edildiyi məlum olur. Qəzet Amasiyada 82, Qurduquluda 26, Allahverdidə 37, Qarakilsədə 39, Meğridə isə 63 tirajla yayılırdı. Qəzetin bölgələrdə belə az sayda yayılmasının və abunəçi azlığının səbəbini bir neçə cəhətdən izah etmək olar ki, bunun da ən başlıca səbəblərindən biri Ermənistanın şovinist dairələrinin erməni dilində çıxan qəzetlərdən fərqli olaraq, Azərbaycan dilli mətbuat orqanına olan ayrı-seçkilik münasibəti idi. İkincisi, bölgələrdə poçt-teleqraf şöbələrinə daha çox ermənilərin təyin edilməsi və onların laqeyd, şovinist münasibəti nəticəsində qəzetin həftələrlə azərbaycanlı oxucularına çatdırılmaması idi. Hətta bəzi yerlərdə qəzetin oxucularına vaxtlı-vaxtında çatdırılmaması o qədər yarıtmaz bir hal almışdı ki, abunəçilər qəzetin 10-20 nömrəsini birdən alırdılar. Qəzetin respublikanın ən ucqar bölgələrində yayılması və abunəçilərinə vaxtlı-vaxtında çatdırılması məsələsindən danışmaq isə daha çətindir. Bu kimi halların mövcudluğu bir tərəfdən çox vaxt abunəçilərin haqlı narazılığına səbəb olurdusa, digər tərəfdən isə qəzetin abunə yazılışı kampaniyasına da öz mənfi təsirini göstərirdi. Burada da erməni şovinist dairələrinin əsas məkrli məqsədi azərbaycanlı oxucunu ana dilində çıxan yerli mərkəzi mətbuat orqanı ilə canlı təmasdan məhrum etmək idi. Amma bütün bu maneələrə, törədilən əngəllərə baxmayaraq, azərbaycanlı oxucular kütləvi şəkildə qəzetə abunə yazılmalarını davam etdirirdilər. Bu da qəzetin dərin, məzmunlu və oxunaqlı çıxması üçün onun fədakar kollektivini daha da ruhlandırırdı.Qəzetin nəşri və onun ahəngdar fəaliyyətini şərtləndirən əlverişli şərait Ermənistanın müvafiq dövlət qurumları tərəfindən erməni dilində çıxan "Xorhurtayin Hayastan", "Maçkal", "Sovetakan Hayastan", "Sosialistakan qjugadyuntesutun", "Karmir Zinvor", "Kommunist", "Avanqard", "Pioner Qanç" və s. mətbuat orqanlarına əlverişli şərait yaradıldığı halda, Qərbi Azərbaycanda ana dilində yeganə mərkəzi mətbuat orqanı olan "Qızıl şəfəq" qəzeti isə bu qayğılardan məhrum idi. Qəzet mütəmadi olaraq erməni şovinist dairələri tərəfindən yaradılan problemlərlə, maneələrlə üzləşir və basqılara məruz qalırdı. Ermənistan Xalq Teleqraf Komissarlığının qəzalar üzrə təlimatçıları Azad Sarkisyan, Yeğyazar Krikoryan, Zaqafqaziya rabitə idarəsinin təlimatçısı Avetik Sosoyan müxtəlif bəhanələrlə "Qızıl şəfəq" qəzetinin fəaliyyətini əngəlləyirdilər. Hətta ermənidilli qəzetlər yüksək tirajla, böyük formatda gündəlik nəşr edildiyi halda, "Qızıl şəfəq" qəzeti ilk vaxtlarda həftədə 2 dəfə kiçik formatda nəşr edilirdi.

Lakin buna baxmayaraq, qəzetin redaksiya heyəti, bölgə müxbirləri "Qızıl şəfəq" qəzetinin yayılması və abunə sayının artması üçün ciddi səy göstərirdilər. Vedibasar üzrə qəzetin müvəkkili Musa Qafarov Xalisa kəndindən bir gündə 165 manat, dairənin daha 9 azərbaycanlı kəndindən isə 469 manatlıq abunə yazdırmışdır. Qəzetin bölgə müxbirləri Məmməd Xəlilov (Sisian), Bayram Bayramov, Paşa Bayramov (Zəngəzur), Tağı Camalov (Basarkeçər), Feyzulla Əzimov (Vedibasar), Fərman Kazımov (Dəvəli), Abbas Bağırov (Şirazlı), Bilas Şadlinski, Məmməd Kazımov (Böyük Vedi), Ələkbər Əliyev (Çimən), Əli Ağayev, Süleyman Bayramov (Amasiya), Əyyub İbrahimov (Başgərni), Musa İsmayılov (Əştərək), Cahangir Rüstəmov, Nurəli Qurbanov, Həbib İsmayılov (Qafan), Abbas Tahir, Məmməd Əliyev (Qəmərli), Hüseyn Bayramov (Loru-Pəmbək), Cəlil Quliyev (Xaçaparak), Əli Rəhimov (Üçmüəzzin), Alma Muğanlinski (Dilican) və başqalarının səyi sayəsində bu mətbu orqanın tirajı günbəgün artmış, geniş oxucu auditoriyası qazanmışdır. 1929-1930-cu illərdə qəzetlə əməkdaşlıq edən fəhlə-kəndli müxbirlərindən Adil Cəlilov, Səyyad Əliyev, Fərman İsmayılov, Mirzə Beşirov, Şamo Hətəmov, Məhəmməd Əzimov, İsmayıl Babayev, Nəriman Əliyev və başqalarını göstərmək olar. Bütün bu imzalar və qəzetin səhifələrində müxtəlif mövzularda dərc olunmuş məqalələr bir daha sübut edir ki, qəzet öz ətrafında yetərli yaradıcı heyət toplaya bilmişdir. Qəzet 1930-cu ilin sentyabr ayından "Qəzeti aktiv yayanlar" sütunu açmışdı. 50 abunə yazdıranın şəkli qəzetdə dərc edilirdi. "Qızıl şəfəq" qəzetinin yayılmasına və abunə yazılışı kampaniyasına bölgələrdə müxtəlif vəzifələrdə çalışan Basarkeçər nahiyyəsi firqə komitəsinin katibi Yusif Abbasov, Basarkeçər İcraiyyə Komitəsinin sədri Abbas Əhmədov, Loru-Pəmbək qəza firqə komitəsinin təlimatçısı Şaban Şabanov və qəzanın gənclər üzrə təlimatçısı Məhəmməd Əzimzadə, Vedi nahiyyəsi üzrə pionerlər təlimatçısı Əkbər Kərimov, Ermənistan Gənclər İttifaqının üzvü Məhəmməd Əsədov, Şərur rayon İcraiyyə Komitəsinin sədri İbrahim Qazıbəyov, qəzetin həmin bölgə üzrə müxbiri Qulam Səfərov və başqaları yaxından köməklik etmişdilər. Qəmərli rayonu Torpaqqala kənd şurasının sədri Kərim Mamedov, Aşağı Buzavand kənd firqə özək katibi Teymur Orucov "Qızıl şəfəq" qəzetinin tirajının artması uğrunda ciddi fəallıq göstərmişdilər. "Qızıl şəfəq" qəzetinin tirajının sürətlə artması həm də qəzetin yayılma arealının geniş olması ilə əlaqədar idi. Qəzet ilk nömrələrindən etibarən təkcə Qərbi Azərbaycanda deyil, keçmiş İttifaqın hüdudlarında da tanınmışdır. Gürcüstandan, Azərbaycanın müxtəlif bölgələrindən məqalələrin, oxucu məktublarının bu mətbu orqanın səhifələrində dərc olunması bunu bir daha təsdiq edir.

Araşdırmalar göstərir ki, "Qızıl şəfəq" qəzeti öz sələfinin tempini aşağı salmayıb. Əgər vaxtı ilə "Zəngi" qəzetinin arzusu 5000 tirajla çap olunmaq idisə, onun xələfi olan "Qızıl şəfəq" qəzeti nəşrinin 2 ilində artıq 10000 tiraj haqqında elan vermişdir. "Bütün kolxoz, kolxozçu, zəhmətkeş, kəndli, firqəçi, komsomol, qadın, pioner, hamı, hamı, hamı "Qızıl şəfəq"in sayı 10 min olmalıdır". Qəzetin tirajının artmasına İrəvan Azərbaycanlı Pedaqoji və İrəvan Kənd Təsərrüfatı Texnikumunun müəllim və tələbə kollektivi xüsusi səy göstərirdilər. Qəzetin ən aktiv müxbirləri və təbliğatçıları da məhz bu təhsil müəssisələrinin müəllim və tələbə heyəti idi. Ümumiyyətlə, Qərbi Azərbaycanda anadilli mətbuatın yayılmasında və tirajının artırılmasında bu təhsil müəssisələrinin müəllim və tələbələrinin misilsiz xidmətləri olub. Faktlar təsdiq edir ki, qəzetin tirajının artmasında, daha çox yayılan və oxunaqlı bir mətbuat orqanına çevrilməsində İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun tələbələri Əbülfət Rəhimov, Nəzər Paşayev, Məmməd Paşayev, Nurəli Qurbanov, Səriyyə Kazımova, Nəsir Əliyev, Məmmədəli Şabanov və başqalarının müstəsna rolu olmuşdur. Qəzet təkcə Qərbi Azərbaycanda deyil, onun hüdudlarından kənarda da özünə oxucu kütləsi toplaya bilmişdi. Xüsusilə Azərbaycanda, onun bir sıra şəhər və kəndlərində oxucuları, müxbirləri olan "Qızıl şəfəq" qəzetinin artan nüfuzu bu mətbu orqanın yayılma arealının da genişləndirmişdi. Naxçıvanda-Şərurda Qulam Səfərov, Qədim Qədimov, Əbülfəz Abasquliyev, Yusif Qəribov, Əziz Qazıbəyov, Zülfüqar Həsənov, Məmməd Qazıbəyov, Nehrəmdə Kərəm Nuriyev, Sədərəkdə Qurban Qurbanov, Ordubadda Əli Abbasov, Məmməd İsmayılov, Qazaxda Qərib Həsənzadə, Gəncədə Qara Həmidov qəzetin ən fəal müxbirləri və təbliğatçıları idilər.

1930-cu il dekabr ayının 7-si "Qızıl şəfəq" qəzeti üçün yaddaqalan günlərdən birinə çevrilir. Həmin gün qəzetin nəşrinin 5-ci ildönümü böyük təntənə ilə qeyd edilmişdir. Bu münasibətlə İrəvan şəhər mərkəzi kəndli evində qəzetin müxbirləri və fəaliyyətində ona dəstək olanların iştirakı ilə 5 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir. Həmin tədbirdə Qərbi Azərbaycanda keçirilən teatrlar olimpiadasında iştirak etmək üçün İrəvana dəvət almış Azərbaycanın görkəmli səhnə ustaları Hüseynqulu Sarabski və Rza Təhmasib də iştirak etmişdir. Hüseynqulu Sarabski tədbir iştirakçıları qarşısında çıxış edərək öz təbrikini çatdırmış, qəzetin yaradıcı kollektivinə işlərində uğurlar arzulamışdır. Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra bədii hissəsi İrəvanda yaşayan və fəaliyyət göstərən azərbaycanlı sənətçilərin konsert proqramı ilə başa çatmışdır.



davamı növbəti saylarımızda

**Cəlal Allahverdiyev,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Min bir dərdin dərmanı...

## Çay alarkən nələrə diqqət edək?



Yorğun olduğumuz zamanlarda, həmçinin əhvalımızı yaxşılaşdırmaq istəyəndə daha çox çaya üstünlük veririk. Dünyada sudan sonra ən çox istifadə olunan içki sayılan çayın 5 min illik tarixi var. Çay haqqında əfsanələr də mövcuddur. Belə ki, Böyük Çin imperatoru Shen Nungın xidmətçisi bağçada su qaynadarkən yarpaqlardan biri qaynayan suyun içinə düşür və sudan yayılan qoxu imperatorun çox xoşuna gəlir. İmperator yarpaq düşmüş suyun dadına baxır və çox bəyənir. O gündən çay Çin ərazisində, daha sonra isə bütün dünyada əvəzolunmaz içki olur.

Çayın bugünkü dəmlənmə şəkli isə 4 min il bundan öncə kəşf edilib. Yeri gəlmişkən, mayın 21-i Beynəlxalq Çay Günü kimi qeyd olunur. BMT həmin tarixi çay idxal edən ölkələrdə bu məhsulun istehlakının azaldılmasına diqqət çəkmək məqsədilə elan edib.

Beynəlxalq Çay Gününü qeyd etmək uzun illər müzakirə mövzusu olsa da, bunu yalnız 2004-cü ildə Hindistanın Mumbay şəhərində və 2005-ci ildə Braziliyanın Portu-Aleqri şəhərində keçirilən ümumdünya ictimai forumlarından sonra reallaşdırmaq mümkün olub.

**Çayın yaranma tarixi...**

Çay sözünün mənşəyi də Çinə gedib çıxır. Bu içki həmin ölkənin ayrı-ayrı bölgələrində "ça" və "te" kimi tələffüz olunur. İngilislər də "te" əsasında "tea" sözünü formalaşdırıblar. Çay Avropaya 17-ci əsrin əvvəllərində holland və portuqal tacirlər tərəfindən gətirilib. 1635-ci ildən Hollandiya və Fransa Avropada çay istehlakına liderlik edən ölkələr hesab olunurlar. Bu bitkini ilk dəfə Amerikaya gətirən insanın adı isə Peter Stuyvesantdır. 1908-ci ildə bu günümüzdə geniş yayılmış birdəfəlik paket çayların ABŞ-da istehsalına başlanılıb.

Dünyada hazırda ən aparıcı çay istehsalçısı ölkələr Hindistan, Şri-Lanka, Çin, Türkiyə, Keniya, İndoneziya, Malayziya, və Vyetnamdır.

Azərbaycanda çay bitkisi ilk dəfə 1912-ci ildə Lənkəranda əkilib. İlk çay zavodu da 1937-ci ildə Lənkəranda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi şəkildə istehsalına başlanılıb. Ölkəmizdə çay əsasən Lənkəran, Astara, Masallı və Zaqatalada yetişdirilir. 1970-1980-ci illərdə 36 min hektar sahədə çay əkilib-becərilib və 34 min tondan çox çay istehsal edilib. Həmin vaxt 15 zavod istifadəyə verilmişdi.

Gündəlik istifadə etdiyimiz çayın necə hazırlandığı, hansı çayın daha keyfiyyətli olduğu, eləcə də çayla bağlı digər məqamlar yəqin ki, çoxlarına maraqlıdır. Çay üzrə mütəxəssis Nuriyyə Rəhmanova mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşüb. Onun sözlərinə görə, çay təbabətdə, infeksion xəstəliklərin qarşısının alınmasında, göz, dil, diş xəstəliklərinin müalicəsində istifadə olunub.

**Hansı çay daha yaxşıdır?**

Mütəxəssis qeyd edib ki, çay əkildikdən 5 il sonra məhsul verir. Onun sözlərinə görə, çayı bölgə ilə çox da bağlamaq düzgün deyil. Hansı çaya aqrotexniki qulluq göstərilirsə, onda məhsuldarlıq və keyfiyyət yüksək olur: "Dünyada Hindistan çayı daha yaxşı çay hesab olunur. Bu gün ölkəmizdə istehsal olunan çaylar Hindistan-Çin hibridindən alınıb. Çünki bu məhsul şaxtaya dözümsüzdür, Günəş və suyu daha çox sevir. Son dönəmlər mənfi 5 dərəcəyə qədər dözən çay kolları əkilib. Çayın keyfiyyətli olması sırf aqrotexniki qulluq qaydalarına əməl edilməsi ilə bağlıdır. Yaxşı qulluq etdikdə ildə dörd dəfə məhsul götürmək mümkündür. Ən yaxşı çay "buket" növ hesab olunur. Daha sonra əla, ondan sonra birinci növ çay gəlir".

**Ətrindən keyfiyyətini bilmək olar**

N.Rəhmanova bildirib ki, hazırda ölkəmizdə çay yetişdirilməsi stimullaşdırılır: "Çaya uzaqdan baxanda onun keyfiyyətli məhsul olub-olmadığını bilmək olmaz. Çayı istifadə etdikdən, dəmlədikdən sonra onun keyfiyyətinə qiymət vermək mümkündür. Bununla belə, çay alan zaman onun üzərində istehsal tarixinə, çeşidi, növü və sair məqamlara diqqət etməliyik. Qablaşdırılması normal olan məhsula üstünlük verilməlidir. Dəmlədikdən sonra çayın ətrindən onun keyfiyyətini bilmək olar. Çayın üzərinə qaynar su tökdükdə çaya xas olan ətir qalxır. Bu ətir bir qədər portağal, bir qədər də alma ətrinə bənzəyir. Amma bu, bənzətmədir".

**Çayın faydaları...**

Mütəxəssisin sözlərinə görə, çayın tərkibində kofein olduğundan, dəmləyib istifadə etdikdən sonra yorğunluğu aradan qaldırır: "Çayın tərkibindəki antioksidant qocalmanı ləngidir. Bizim vərdişə çevirdiyimiz çay bütün infeksion xəstəliklərdə orqanizmə kömək edir. Həmçinin yeni hüceyrələrin yaranmasına kömək edir. Çay bədəni tərk edənə qədər bütün orqanlarımıza faydası toxunur. Çay bədəndə qan damarlarına, əzələlərin bərpasına müsbət təsir göstərir".

**Dəmlədikdən sonra 20-30 dəqiqə ərzində...**

N.Rəhmanova bildirib ki, köhnə çayı istifadə etmək tövsiyə edilmir: "Nəzərə almaq lazımdır ki, biz çayı yorğunluğumuzun çıxması üçün içirik ki, bədənimiz gümrahlaşsın. Eyni zamanda, susuzluğumuzu yatırsın. Biz köhnə çay içdikdə artıq orqanizmimizə çayın bir faydası olmur. Ona görə də çayı dəmlədikdən sonra 20-30 dəqiqə ərzində istifadə etmək məsləhətdir".

Mütəxəssis qeyd edib ki, iriyarpaqlı çaylar daha gec dəm alır. Orta iri yarpaqlı çaylar nisbətən tez dəmlənir. Birdəfəlik çaylar isə ən tez dəmlənən çaylardır.

**Ətirli çaylar ziyandırmı?**

Qeyd edək ki, son vaxtlar bazarda ətirli çay çeşidlərinə daha çox rast gəlinir. N.Rəhmanova vurğulayıb ki, buna ətirləndiricilərdən istifadə etməklə nail olunur: "Ətirləndiricilərdən istifadə müxtəlif zövqləri oxşamaq məqsədi daşıyır. Çayı ətirləndirmək üçün təbii qida məhsullarında istifadə olunan efir yağlarından istifadə edilir. Ətirləndiricilər arasında ən populyar olanı isə berqamotdur. Ətirli çaylar bazarda bəyənilir. Ziyanı yoxdur".

**Çayımız 40 ölkədə satılır**

Mütəxəssis bildirir ki, Azərbaycanın istehsal etdiyi çay bu gün 40-dan çox ölkəyə ixrac olunur. Azərbaycan çaylarına ən böyük tələbat isə ərəb ölkələrində, Rusiya, Ukrayna, Amerikadadır. Onun sözlərinə görə, Azərbaycan çayı Yaponiya bazarına da çıxarılıb.

**Gündə neçə stəkan çay içmək məsləhətdir?**

Azərbaycanda adına mahnılar yazılan "armudu stəkanda çay" deyimi isə sən demə, elə-belə yaranmayıb. Armudu stəkanda çayın daha dadlı olduğunu mütəxəssis də təsdiqləyir. Onun sözlərinə görə, armudu stəkanın quruluşuna görə soyuma tədricən getdiyindən çay isti və ləzzətli olur. O deyir ki, bir insan gün ərzində 8-12 armudu stəkan çay qəbul edə bilər.

*Yeganə BAYRAMOVA*

# Mədəni müxtəliflik hər ölkənin zənginliyidir

## Dünyada vəziyyət necədir?

Hər bir dövlət özünün coğrafiyasına, tarixinə və tərkibində yaşayan insanların həyat tərzinə, ictimai xüsusiyyətlərinə uyğun quruluşa sahibdir. Siyasi, coğrafi, tarixi, dini və dil kimi amillər dövlətləri bir-birindən fərqləndirir. Bu baxımdan qarşımıza müxtəlif və fərqli mədəniyyətlərin bir yerdə yaşadığı multikultural cəmiyyətlər çıxır.

### Tolerantlıq sadəcə başqa mədəniyyətlərin qəbulu deyil!

Multikultural cəmiyyətin, mühitin əsas dayaqlarından biri də fərqli mədəniyyətlərin bir-birinə qarşı tolerant münasibətidir. Lakin bir şeyi dəqiq bilməliyik ki, tolerantlıq sadəcə başqasının və ya başqa mədəniyyətin kor-koranə şəkildə qəbulu deyil. Tolerantlıq müxtəlif mədəniyyətlərin öyrənilməsi, onunla mübadilə aparılması və qavranılmasıdır. Haqqında böyük ümidlərlə danışdığımız qloballaşmanın bütün dünyanı əhatə etməsi müxtəlif və fərqli mədəniyyətlərin bir-birini qavramasından irəli gəlir.



### "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannamə

Etiraf edək ki, hazırda dünya mədəniyyətini müxtəlif amillər təhdid edir. Bir halda milli özünəməxsusluğun həddindən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, digər halda din mədəniyyətə təzyiq göstərir. Üçüncü halda isə praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur.

Bütün bu faktların nəzərə alınması və onların əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə YUNESKO-nun "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannaməsinin qəbul olunmasını zəruri edib. Bundan başqa, hər il mayın 21-də Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü qeyd olunur. Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilib. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilib.

### Dünyada vəziyyət...

ABŞ geniş mədəni müxtəlifliyinə görə tanınır. Dünyanın hər yerindən insanlar buraya öz adət və ənənələrini gətirərək köçüblər. Bu müxtəliflik mətbəxdə, festivallarda və ölkədə danışılan dillərdə özünü göstərir.

Hindistanda 2000-dən çox fərqli etnik qrup var. İsveçdə isə son illər mədəni müxtəliflik daha çox inkişaf edib. Ölkə bərabərlik və tolerantlığa önəm verməsi ilə tanınır.

Braziliyada yerli, Afrika, Avropa və Asiya təsirlərini birləşdirən mədəniyyətlər üstünlük təşkil edir. Bu müxtəliflik onun musiqisi, rəqsi və dini təcrübələrində özünü göstərir.

### Mədəni müxtəlifliyin Azərbaycan nümunəsi

Müasir dövrdə Azərbaycan cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi sahəsində örnək dövlətlərdən biridir. Bu sahədə ölkəmiz böyük nailiyyətlər əldə edib. Əsas göstərici olaraq ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasını qeyd edə bilərik.

Özünəməxsus milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır. BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir. Tarixin bütün dövrlərində Azərbaycanın dini, milli və mədəni dəyərlərə, müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə tolerantlıq nümunəsi olması aşkar reallıqdır.

*Yeganə BAYRAMOVA*




# "Nar"ın dəstəyi ilə hazırlanan Jest dili tətbiqi tezliklə istifadəyə veriləcək

Sərfəli mobil operator "Nar"ın, həmçinin bp və tərəfdaşlarının dəstəyi, ADA Universiteti və ADA Universiteti Fondunun təşkilatçılığı ilə jest dili üzrə mobil tətbiqin hazırlanması istiqamətində işlər planlı şəkildə davam etdirilir. Layihənin son rübündə mühüm mərhələyə - məzmunun yaradılmasından tətbiqə inteqrasiya və test prosesinə keçid edilib. Bu təşəbbüs inklüzivliyi təşviq edərək eşitmə və nitq məhdudiyyəti olan şəxslərin digər insanlarla ünsiyyətini asanlaşdırır və onların jest dilini tamamilə ödənişsiz və müəllimə ehtiyac olmadan öyrənməsinə imkan yaradır.

Yaxın zamanda yekunlaşacaq layihə çərçivəsində "Karlara Dəstək" İctimai Birliyinin dəstəyi ilə hazırlanan tədris məzmunu test mühitinə inteqrasiya edilib, server və verilənlər bazası üzrə işlər demək olar ki, tamamlanıb, AWS platformasında yerləşdirmə prosesi icra olunub. Eyni zamanda, tətbiqin əsas funksiyaları test üçün hazır vəziyyətə gətirilib, UI/UX dizayn elementləri yekunlaşdırılıb. İlkin mərhələdə planlaşdırılandan daha çox söz və tədris səhifəsi hazırlanaraq hədəfə doğru davamlı irəliləyiş təmin olunub.

Qeyd edək ki, jest dili üzrə bu mobil tətbiqin hazırlanması layihəsinə "Nar"ın da qoşulması onun inklüziv cəmiyyətin qurulmasına yönəlmiş fəaliyyətindən irəli gəlir. Layihə bu sahədə başladığımız işlərin davamı olaraq, ölkədə işarət dilinin tədrisi və əlilliyi olan şəxslərin informasiya əlçatanlığına dəstək məqsədi daşıyır.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




# "Bakcell" süni intellekt təlimi təşkil etdi

İnnovasiya və sürət lideri "Bakcell" media nümayəndələrinə "Süni intellektin iş mühitində tətbiqi" mövzusunda növbəti təlim təşkil edib. Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü çərçivəsində keçirilən tədbirdə 50-dən çox media nümayəndəsi iştirak edib.

Təlimin əsas məqsədi jurnalistləri süni intellekt sahəsində ən son trendlər ilə tanış etmək, dəyişən dünyada innovasiya və son dövr yeniliklərin mediada tətbiqi ilə bağlı praktik tövsiyələr vermək olub. Təlim zamanı süni intellektin telekommunikasiyada rolu və "Bakcell"in süni intellekt əsaslı məhsul və xidmətləri ilə bağlı ətraflı məlumat verilib. Tədbir çərçivəsində iştirakçılar süni intellektin kommunikasiya sahəsində istifadəsinə dair əhatəli biliklər qazanıblar.

Bu təşəbbüs "Bakcell"in innovasiya və süni intellekt strategiyası çərçivəsində rəqəmsal həllərin cəmiyyət üçün faydaya çevrilməsi istiqamətində atdığı ardıcıl və məqsədyönlü addımların növbəti nümunəsidir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4952
Sifariş: 1053
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova